**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# NAXÇIVAN ŞƏHƏRİNİN TARİXİ (XIX ƏSR)

İxtisas: 5503.02 – Vətən tarixi

Elm sahəsi: Tarix

İddiaçı: **Arzu Kamal oğlu Abdullayev**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**NAXÇIVAN – 2021**

Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin “Azərbaycan tarixi” kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: AMEA-nın müxbir üzvü,
tarix üzrə elmlər doktoru, professor
**Zəhmət Əbülfət oğlu Şahverdiyev**

Rəsmi opponentlər: Tarix üzrə elmlər doktoru, professor
**Oqtay Balaqədəş oğlu Sultanov**

Tarix üzrə fəlsəfə doktoru, dosent
**Elnur Həşim oğlu Kəlbizadə**

Tarix üzrə fəlsəfə doktoru
**Mehman Sərxan oğlu Şabanov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Naxçıvan Bölməsinin nəzdində fəaliyyət göstərən ED 1.13 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü,
tarix üzrə elmlər doktoru, professor
______________ **İsmayıl Muxtar oğlu Hacıyev**

Dissertasiya şurasının elmi katibi: Tarix üzrə fəlsəfə doktoru, dosent

_____________ **Emin Arif oğlu Şıxəliyev**

Elmi seminarın sədri: Tarix üzrə elmlər doktoru

______________ **Fəxrəddin Adil oğlu Cəfərov**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dövrdə Azərbaycanın ayrı-ayrı bölgə və şəhərlərinin tarixinin obyektiv şəkildə tədqiq edilməsi tarix elmimizin qarşısında duran mühüm vəzifələrdən biridir. Bu baxımdan Naxçıvan şəhərinin XIX əsr tarixinin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Çünki Naxçıvan şəhərinin tarixinin araşdırılması həm tarixi, həm də siyasi baxımdan xüsusilə vacibdir. Heç də təsadüfi deyildir ki, ulu öndər Heydər Əliyev bir zamanlar deyirdi: *"Naxçıvanın əskidən, keçmişdən çox gözəl, özünəməxsus siması var. Onun memarlıq abidələri, ümumiyyətlə, şəhər quruluşu var. Əgər insanlar onları öyrənə bilsələr, görərlər ki, Naxçıvanda hələ qədim zamanlardan şəhərin planlaşdırılması, küçələrin, evlərin, məhəllələrin yerələşdirilməsi xaotik olmayıb, çox əsaslı olubdur".*[1]

Azərbaycanın tarix boyu ən strateji bölgələrindən, həmçinin siyasi, ictimai və mədəni mərkəzlərindən biri olan Naxçıvan şəhəri bu gün Naxçıvan Muxtar Respublikasının paytaxtıdır. Hazırda sahəsi 35,48 $km^2$ olan Naxçıvan şəhəri ərazisində ilkin şəhər mədəniyyətinin tarixi ən az 5000 il öncədən başlayır.[2] Etimoloji olaraq şəhərin adı hələ antik dövr və orta əsr müəllifləri tərəfindən bəşəriyyətin ikinci atası sayılan Nuh peyğəmbərlə əlaqələndirilmişdi.[3] XIX əsr

---

[1] Hacıyev, İ.M. Naxçıvan Muxtar Respublikasınm ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər) / İ.M.Hacıyev. – Naxçıvan: Əcəmi, – 2011. – s. 9.

[2] Naxçıvan tarixi / Red. hey. İ.M.Hacıyev, İ.Ə.Həbibbəyli və s. – Naxçıvan: Əcəmi, – c. 1. – 2013. – 452 s.; Həbibbəyli, İ.Ə. Naxçıvan şəhərinin yaşı – beş min il // Naxçıvan Muxtar Respublikasının yaranması: tarix və müasirlik. Elmi praktiki konfransın materialları, – Bakı: – 8 fevral, – 2007, – s. 20; Baxşəliyev, V.B. Naxçıvanın qədim şəhərləri // – Naxçıvan: Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, 2010. № 2, – s. 58; Səfərli, H.Y. Naxçıvanda şəhər mədəniyyətinin yaranmasi tarixindən: [elektron resurs] / www.qedim.nakhchivan.az/ – mart 11, 2018. URL: http://www.qedim.nakhchivan.az/qedim. nakhchivan.az/index.php ?option=com_content&view=article&id=95:hacfxrddin-sfrli-naxcvanda-hr-mdni-yyətinin- yaranmasi-tarixindn&catid=44:simpozium-mqallr&Itemid=80

[3] Карпини, Д.П. История Монгалов; Рубрук, Г. Путешествие в восточные страны / Д.П.Карпини. – Москва: Государсвенное издательство географичес-

müəllifi və Naxçıvan şəhər məktəbində pedaqoji fəaliyyətlə məşğul olmuş K.Nikitin mifoloji mənbələrdə və xalq arasında yayılmış rəvayətlərdə Naxçıvan şəhərinin əsasının məhz Nuh peyğəmbər tərəfindən qoyulduğunun əksini tapdığını yazmışdır.[4]

Bir sıra antik və orta əsr yazılı qaynaqlarında şəhərin əsasının qoyulma tarixi eramızdan əvvəl 1539-cu il olaraq göstərilmişdir. F.Buzand da eramızdan əvvəl baş vermiş hadisələrdən danışarkən Naxçıvan şəhərinin adını xatırlamışdır.[5]

Azərbaycan tarixinin ən qanlı dövrlərindən biri olan XIX əsr Naxçıvanın tarixində ictimai-siyasi proseslərin zənginliyi və ağırlığı ilə xarakterizə olunur. Naxçıvan şəhərinin XIX əsr tarixinin öyrənilməsi, araşdırılması müasir dövrdə bir neçə səbəbdən aktualdır:

1) Bu dövrün başlanğıcında Naxçıvan şəhəri dövlət kimi fəaliyyət göstərmiş Naxçıvan xanlığının paytaxtı statusunu daşımış və ümumilikdə Qafqazın ictimai-siyasi və mədəni həyatında əhəmiyyətli rol oynamışdır;

2) Naxçıvan tarixin bütün dövrlərində olduğu kimi bəhz olunan dövrdə də bölgədə marağı olan ölkələrin diqqətində olmuş, Qacarlar dövləti, Çar Rusiyası açıq şəkildə, Fransa və İngiltərə kimi dövlətlər isə gizli şəkildə Naxçıvana və ümumilikdə bölgəyə təsir göstərməyə çalışmışlar;

3) Ümumilikdə Azərbaycan tarixində olduğu kimi, Naxçıvan şəhərinin tarixində də bu dövr keçid dövrü olmuşdur. Bu baxımdan müstəqil xanlıq idarəçiliyindən müstəmləkə sisteminə, feodalizmdən kapitalizmə keçid mərhələsi kimi, Naxçıvan şəhərinin XIX əsr tarixinin öyrənilməsi aktuallıq kəsb edir.

---

кой литературы, – 1957. – 270 с.; The Bondage and travels Johann Schiltberger, a native of Bavaria, in Europe, Asia and Africa 1396-1427. London: 1859. – p. 263.; Səfərli, F.Y. Tarixi mənbələrdə Nuh peyğəmbər / F.Y.Səfərli. – Naxçıvan: Əcəmi, – 2015. – 160 s.

[4]Никитин, К.А. Город Нахичевань и Нахичеванский уездь // – Тифлис: Сборник материалов для описания местностей и племен Кавказа (СМОМПК). Вып.2, Тифлис: – 1882. – с.111.

[5]Salamzadə, Ə.R. Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri / Ə.R.Salamzadə, K.Məmmədzadə. – Bakı: Elm, – 1985. – s. 43

4) Məhz bu dövrdə Naxçıvan şəhərinin şəhər quruluşunda dəyişikliklər başlayır. Bu dövrə qədər Şərq şəhəri olan Naxçıvan Qərb və Rusiya memarlığının, şəhərsalma mədəniyyətinin müsbət meyillərindən də bəhrələnməyə başlayır.

5) Müstəmləkəçilik və köçürmə siyasəti ilə əlaqədar olaraq şəhərin etnik tərkibində dəyişikliklər baş verir, nisbətən daha aşağı mədəni-psixoloji səviyyəyə malik yad ünsürlərin şəhər həyatına daxil edilməsi nəticəsində şəhərdə qanlı qırğınların və toqquşmaların əsası qoyulur. Bu aspektdən də XIX əsr Naxçıvan şəhərinin tarixinin öyrənilməsi aktuallıq kəsb edir.

Bu vaxta qədər bilavasitə Naxçıvan şəhərinin XIX əsr tarixi xüsusi tədqiqat obyektinə çevrilməmişdir. Qeyd etmək lazımdır ki, birbaşa olaraq Naxçıvan şəhərinin tarixinin öyrənilməsinə hələ XIX əsrin sonlarından maraq göstərilmişdir. Xüsusi olaraq Naxçıvan şəhərinin tarixinə öyrənilməsinə həsr olunmuş ilk əsərlərdən birini Naxçıvan şəhər məktəbinin müəllimi olmuş K.Nikitinin "Naxçıvan şəhəri və Naxçıvan qəzası" adlı məqaləsini hesab etmək olar.[6] Bu əsərdə ilk dəfə olaraq bilavasitə Naxçıvan şəhərinin tarixi, maddi-mədəniyyəti və abidələri ayrıca öyrənilmə obyekti kimi müəyyən edilmişdir.

Azərbaycan tarixşünaslığında Naxçıvan şəhərinin XIX əsr tarixinə həsr edilmiş kompleks xarakterli xüsusi monoqrafiya və tədqiqat işi olmasa da, indiyə qədər yazılmış bəzi əsərlərdə şəhər tarixi ilə bağlı ciddi təhlillər aparılmışdır. R.Məmmədovun "Naxçıvan şəhərinin tarixi oçerki" əsəri də Naxçıvan şəhərinin tarixinə həsr edilmişdir. Lakin bu əsərdə şəhərin XVII əsrə qədərki tarixindən bəhs edilmişdir.[7]

---

[6] Никитин, К.А. Город Нахичевань и Нахичеванский уездь // – Тифлис: Сборник материалов для описания местностей и племен Кавказа (СМОМПК). Вып.2, Тифлис: – 1882. – с. 109-142.

[7] Məmmədov, R.A. Naxçıvan şəhərinin tarixi oçerki – R.A.Məmmədov. – Bakı: Elm, – 1977. – 160 s.

Şəhərin iqtisadi həyatı ilə bağlı məsələlər Ə.Sumbatzadənin "XIX əsr Azərbaycan sənayesi" adlı monoqrafiyasında[8] işğal dövrü tarixi ilə bağlı məqamlar M.M.Əliyevin "Naxçıvan xanlığı və onun Rusiyaya birləşməsi" mövzusunda yazdığı namizədlik dissertasiyasında[9] öz əksini tapmışdır.

Qeyd etmək lazımdır ki, XX əsrin 90-cı illərinin ortalarından başlayaraq Naxçıvanın şəhərinin tarixinin öyrənilməsi istiqamətində də xeyli işlər görülmüş, Naxçıvanın tarixinin müxtəlif dövrlərinə həsr edilmiş monoqrafiya və məqalələr çap olunmuşdur.

Ümumilikdə, ən yeni tariximizə nəzər salanda biz Naxçıvanın, o cümlədən Naxçıvan şəhərinin tarixinə yeni konseptual yanaşmanın əsasının 1996-cı ildə "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumundan sonra qoyulduğunun şahidi oluruq.[10]

Naxçıvan Muxtar Respublikasının 75, 80, 85 və 90 illik yubileyləri ilə əlaqədar ulu öndər Heydər Əliyev və ölkə Prezidenti İlham Əliyev tərəfindən imzalanmış fərman və sərəncamlar, 95 illik yubileylə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun Sərəncamı ulu yurdun tarixinin öyrənilməsinə yeni konseptual yanaşmanın hüquqi bazasını təmin edən sənədlər kimi tarixə düşmüşdür.[11] Muxtar respublikanın yubileyləri ilə əlaqədar keçirilən

---

[8]Сумбатзаде, А.С. Сельское хозяйство Азербайджана в XIX в / А.С. Сумбатзаде. – Баку: Элм, – 1959. – 363 с.

[9] Алиев, М.М. Нахичеванское ханство и его присоединение к России: / автореферат на соискание ученой степени кандидата исторических наук. / – Баку, 1986. – 32 с.

[10] Uluslararası qaynaqlarda Naxçıvan mövzusunda simpoziumun keçirilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı: [elektron resurs] / www.alimeclis.az, – mart24, 1996. URL: http://www.alimeclis.az/index.php?option=com_content&view=article&id=60:naxcivan-al-mclsnn-ryast-heyt-uezr-srncam&catid=38:srncamlar&Itemid=89

[11]Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı: [elektron resurs] / www.nakhchivan. – fevral 4, 1999. URL:www.nakhchivan.preslib.az/az_b5-5.html.; Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı: [elektron resurs] / www.nakhchivan. – fevral 9, 2004. URL:www.nakhchivan.preslib.az/az_b5-7.html.; Naxçıvan Muxtar Respublikasının

elmi konfranslarda Naxçıvan tarixinin mühüm dövrləri ilə bağlı yeni istiqamətlər müəyyən edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun regionun tarixi ilə bağlı çoxsaylı məruzə və çıxışları ən dəyərli sənəd materiallarından tədqiqat işində mənbəşünaslıq bazası kimi səmərəli şəkildə istifadə edilmişdir.

1996-cı ildən ötən illər ərzində Naxçıvan Muxtar Respublikasında keçirilən "Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri", "Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan", "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi", "Naxçıvan: ilkin şəhər və Duzdağ", "Naxçıvan qalaları: tarixdə və günümüzdə" və başqa mövzularda keçirilən beynəlxalq simpoziumlarda da Naxçıvan şəhərinin tarixi ilə bağlı edilən məruzə və çıxışlar şəhər tarixinin öyrənilməsində mühüm rol oynamışdır.

Naxçıvan şəhərinin XIX əsr tarixinə aid məlumatların verildiyi fundamental tədqiqat əsərlərindən biri və bəlkə də birincisi olan "Naxçıvan tarixi" çoxcildliyi də məhz görülən bu işlərin nəticəsi olaraq meydana çıxmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması və nəşr olunması barədə" sərəncamı[12] ilə 2013-2015-ci illərdə hazırlanaraq nəşr edilmiş üç cildlik "Naxçıvan tarixi" çoxcildliyinin II cildi ümumilikdə Naxçıvan bölgəsinin tarixinə həsr edilsə də, burada bölgənin, o cümlədən Naxçıvan şəhərinin XIX əsr tarixi ilə bağlı əldə edilmiş ən son elmi nəticələr öz əksini

---

85 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı: [elektron resurs] / www.nakhchivan. – fevral 6, 2009. URL: www.nakhchivan.preslib.az/az_b5-10.html.; Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı:[elektron resurs] / www.nakhchivan. – yanvar 14, 2014. URL: www.nakhchivan.preslib.az/az_b5-13.html

[12] Naxçıvan tarixi / Red. hey. İ.M.Hacıyev, İ.Ə.Həbibbəyli və s. – Naxçıvan: Əcəmi, – c. 1. – 2013. – 452 s.; Naxçıvan tarixi çoxcildliyinin hazırlanması və nəşr olunması barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı:[elektron resurs] / www.nakhchivan. – avqust 06, 2012. URL: www.nakhchivan.az/portal-1/serencam-39.htm,

tapmışdır. [13] Məsələlərə milli tarixşünaslıq və azərbaycançılıq nöqteyi-nəzərindən yanaşıldığını nəzərə alsaq, bu fundamental əsər həm də bizim üçün metodoloji yolgöstərici rolunu oynamışdır.

Nəinki, Naxçıvan şəhərinin, ümumilikdə Naxçıvan bölgəsinin XIX əsr tarixinə həsr edilmiş tədqiqatlar içərisində AMEA-nn müxbir üzvü, professor Zəhmət Şahverdiyevin əsərləri mühüm rol oynayır. O, elmi tədqiqatlarını birbaşa olaraq Naxçıvanın XIX əsr tarixinə həsr etmişdir. Hələ 1980-ci ildə Z.Şahverdiyev XIX əsrin 70-90-cı illərində Azərbaycanda aqrar münasibətlər və kəndlilərin vəziyyəti (Naxçıvan və Şərur-Dərələyəz qəzalarının materialları üzrə) mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.[14] Müəllifin 2008-ci ildə nəşr edilmiş "Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində" adlı monoqrafiyasında Naxçıvan xanlığının Rusiya imperiyası tərəfindən işğalı, bölgənin inzibati-ərazi quruluşunda dəyişikliklər və idarəçilik sistemi, sosial-iqtisadi və mədəni həyatı, ermənilərin Naxçıvana köçürülməsi və azərbaycanlılara qarşı soyqırımı tarixşünaslığın müasir tələbləri, elmi dövriyyəyə yeni cəlb edilmiş sənəd və materiallar əsasında öyrənilmişdir.[15]

Tarixçi alimlər M.Əliyevin və F.Əliyevin birlikdə nəşr etdirdikləri Naxçıvan xanlığının tarixinə dair əsərlərdə xanlıq idarəçiliyi dövründə və Rusiya işğalı ərəfəsində Naxçıvan şəhərinin tarixi ilə bağlı çox qimyətli məlumatlar əksini tapmışdır.[16]

Ermənilərin Naxçıvana iddialarının milli tarixşünaslıq baxımından araşdırılmasında akademik İ.Hacıyevin, tarix üzrə fəlsəfə doktorları E.Şıxəliyevin, E.Cəfərlinin tədqiqatlarını xüsusilə qeyd etmək

---

[13]Naxçıvan tarixi / Baş. məs. V.Y.Talıbov. – Naxçıvan: Əcəmi, – c. 2. – 2014. – 528 s.

[14]Шахвердиев, З.А. Аграрные отношения и положения крестьян Азербайджана в 70-90-е гг. XIX в (По материалам Нахичеванского и Шаруро-Даралагезского уездов) / З.А.Шахвердиев. – Баку: Елм, – 2009. – 185 с.

[15]Şahverdiyev, Z.Ə. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində / Z.Ə.Şahverdiyev. – Bakı: Elm, – 2008. – 264 s.

[16]Əliyev, F.M. Naxçıvan xanlığı / F.M.Əliyev, M.Əliyev. – Bakı: Şərq-Qərb, – 2007. – 120 s.

olar.[17] AMEA-nın müxbir üzvü H.Səfərlinin tədqiqatları isə XIX əsrdə Naxçıvan şəhərinin dini mənəvi həyatının və bu dövrdə inşa edilmiş abidələrin epiqrafik kitabələrinin öyrənilməsi baxımından ciddi elmi əhəmiyyətə malik əsərlərdir.[18] Naxçıvan xanlığının paytaxtı olan Naxçıvan şəhərinin XIX əsrdə Qafqazda dövlətlərarası münasibətlər sistemində yerinin müəyyənləşdirilməsi tarix üzrə fəlsəfə doktoru M.Quliyevin adı ilə bağlıdır. Tədqiqatçı arxiv materialları əsasında XIX əsr Naxçıvan şəhərinə dair qiymətli məlumatlar vermişdir.[19]

Tarix üzrə fəlsəfə doktoru, dosent H.Həsənovun "Naxçıvanın çar Rusiyası tərəfindən işğalı",[20] tarix üzrə fəlsəfə doktoru, dosent S. Budaqovanın "Naxçıvan diyarının tarixi coğrafiyası (XVIII əsrin II yarısı – XIX əsrin I qərinəsi)",[21] tarix üzrə fəlsəfə doktoru Y.Rəhimovun "Naxçıvan XIX əsr rus mənbələrində"[22] adlı əsərində tədqiqat

---

[17]Hacıyev, İ.M. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri / İ.M.Hacıyev. – Naxçıvan: Əcəmi, – 2012. – 192 s.; Hacıyev, İ.M. Naxçıvan bölgəsinin etnik tarixinə dair // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri, İctimai və humanitar elmlər seriyası, – 2009. №1 (14), s. 5-12.; Hacıyev, İ.M. Böyük güclərin Azərbaycanla bağlı geosiyasi maraqlarında Naxçıvanın yeri / İ.M.Hacıyev, E.A.Şıxəliyev, E.Y.Cəfərli. – Bakı: Elm və təhsil, – 2017. – 223 s.; Şıxəliyev, E.A. Erməni iddialarının siyasi mahiyyəti / E.A.Şıxəliyev. – Bakı: Nurlan, – 2006. – 187 s.; Şıxəliyev, E.A. Ermənistan-Azərbaycan munaqişəsi sivilizasiyalararası munasibətlər kontekstində / E.A.Şıxəliyev. – Bakı: Elm və Təhsil, – 2011. – 324 s.

[18]Səfərli, F.Y. Naxcıvanda sosial-siyasi və ideoloji mərkəzlər / F.Y.Səfərli. – Bakı: Elm, – 2003. – 342s.; Səfərli, H.Y. Naxçıvanın türk-islam mədəniyyəti abidələri / H.Y.Səfərli. – Naxçıvan: Əcəmi,–2017. – 216 s.; Səfərov, F.Y. Qanlıgöl su anbarı bəndinin tikdirilməsi haqqında kitabə // Respublika arxeoloq və etnoqraflarının I elmi konfransının materialları, – Bakı: Elm, – 1992, – s. 116-121.

[19]Quliyev, M.R. Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyi və əlaqələri. M.R.Quliyev. – Naxçıvan: Əcəmi, – 2013. – 184 s.

[20]Həsənov, H.N. Naxçıvanın çar Rusiyası tərəfindən işğalı // Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri, – Naxçıvan: – 9-10 iyun, – 2006, – s. 235-246.

[21]Budaqova, S.İ. Naxçıvan diyarının tarixi coğrafiyası (XVIII əsrin ikinci yarısı – XIX əsrin birinci qərinəsi) / S.İ.Budaqova. – Bakı: Elm, – 1995. – 96 s.

[22]Rəhimov, Y.N. Naxçıvan XIX əsr rus mənbələrində / Y.N.Rəhimov. – Bakı: Elm və təhsil, – 2014. – 180 s.

obyekti kimi bilavasitə Naxçıvan şəhəri seçilməsə də, şəhərin XIX əsr tarixindən xüsusi olaraq bəhs edilmişdir. AMEA-nın həqiqi üzvü, professor Ç.Qacarın rus dilində nəşr edilən "Naxçıvan dünyanın ən qədim şəhərlərindən biri" kitabı daha çox tarixi fotoşəkil və illüstrativ materialları əks etdirir.[23]

Tarix üzrə fəlsəfə doktoru, dosent İ.Kazımbəyli və N.Quliyev tədqiqat əsərlərində XIX əsrdə Naxçıvan şəhəri əhalisinin demoqrafik tərkibi ilə bağlı qiymətli tədqiqatlar aparmış və əsaslı elmi fikirlər irəli sürmüşlər.[24] C.Mustafayev[25] və S.Hacıyeva[26] kimi tarixçi alimlərin tədqiqatlarında XIX əsr Naxçıvan şəhərinin iqtisadi həyatının öyrənilməsinə xüsusi diqqət yetirilmişdir.

Bəhs olunan dövrdə Naxçıvan şəhərində mədəni inkişaf proseslərinin öyrənilməsində akademik İ.Həbibbəylinin,[27] AMEA-nın müxbir üzvü Ə.Quliyevin (Amanoğlu),[28] tarix üzrə elmlər doktoru F.Cəfərovun, S.İbrahimovun, Ə.Qəhrəmanovun[29] böyük xidmətləri olmuşdur. XIX əsrdə Naxçıvanda təhsilin tarixi və təhsil sahəsindəki inkişaf prosesləri barədə professor H.Əhmədovun "XIX əsr Azərbay-

---

[23]Каджар, Ч.О.Нахчыван один из древнейших городов мира (мифы, легенды, факты) / Ч.О.Каджар. – Нахчыван: Аджеми, – 2016. – 283 с.

[24]Quliyev, N.Ə. Naxçıvan xanlığının əhalisi (tarixi-demoqrafik tədqiqat / N.Ə.Quliyev. – Bakı: Elm, – 2006. – 163 s.; Kazımbəyli, İ.F. Naxçıvan: əhalisi, sosial-iqtisadi və siyasi tarixinə dair (1828-1920-ci illər) / İ.F.Kazımbəyli. – Bakı: Elm, – 2007. – 175 s.

[25]Mustafayev, C.M. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq / C.M.Mustafayev. – Bakı: Elm, – 2002. – 272 s.

[26]Hacıyeva, S.A. Naxçıvanda sənətkarlıq (XII-XIX əsrlər) / S.A.Hacıyeva. – Naxçıvan: Əcəmi, – 2017. – 184 s.

[27]Həbibov, İ.Ə. Ədəbi yüksəliş / İ.Ə.Həbibbəyli. – Bakı: Bilik, – 1985. – 64 s.; Həbibbəyli,İ.Ə. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri / İ.Ə.Həbibbəyli. – Bakı: Azərnəşr, – 1997. – 684 s.; Həbibbəyli, İ.Ə. Ədəbi-tarixi yaddaş və müasirlik / İ.Ə.Həbibbəyli. – Bakı: Nurlan, – 2007. – 696 s.; Həbibbəyli, İ.Ə. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri (təkmilləşdirilmiş ikinci nəşri) / İ.Ə.Həbibbəyli. – Naxçıvan: Əcəmi, – 2009. – 424 s.

[28]Quliyev, Ə.A. Məhəmməd ağa Şahtaxtlının publisistikası / Ə.A.Quliyev. – Bakı: Elm və təhsil, – 2016.–128 s.

[29]Qəhrəmanov, Ə.K.Naxçıvan teatrının salnaməsi / Ə.K.Qəhrəmanov, S.H.İbrahimov, F.A. Cəfərov. – Naxçıvan: Əcəmi, – 2010. – 736 s.

can məktəbi" adlı monoqrafiyasında qiymətli məlumatlar verilmişdir.[30] XIX əsr Naxçıvan təhsilinin bəzi məsələlərinə F.Xəlilovun əsərlərində də toxunulmuşdur.[31] Bundan əlavə İ.Petruşevski,[32] B.Budaqov və Q.Qeybullayev,[33] S.Babayev,[34] A.Bağırov,[35] V.Baxşəliyev,[36] Y.Mahmudov, K. Şükürov,[37] V.Piriyev,[38] R.Məmmədov,[39] E.İsayev,[40] E.Kəlbizadə,[41] İ.Əliyev,[42] İ.Kəngərli,[43] İ.Zeynalov[44] kimi

---

[30]Əhmədov, H.M. XIX əsr Azərbaycan məktəbi / H.Əhmədov. – Bakı: Maarif, – 1985. – 300 s.

[31]Xəlilov, F.Y. Maarif fədaisi: Həsən bəy Qazıyev / F.Y.Xəlilov. – Naxçıvan: Əcəmi, – 2016. – 88 s.

[32]Петрушевский, И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI — начале XIX вв. / И.П.Петрушевский. – Ленинград: Издательство Ленинградского Государственного ордена Ленина Университета имени А. А. Жданова, – 1949. – 384 с.

[33]Budaqov, B.Ə. Naxçıvan diyarının yer yaddaşı / B.Ə.Budaqov, Q.Qeybullayev. – Bakı: Nafta-Press, – 2001. – 120 s.; Гейбуллаев, Г.А. Топонимия Азербайджана (историко-этнографичегкое исследование): [электронный ресурс] / www.ebooks.az. – ноября 11, 1986. URL: http://www.ebooks.az/view/zPsdDyTv.pdf.

[34]Babayev, S.Y. Naxçıvan Muxtar Respublikasının coğrafiyası / S.Y.Babayev. – Bakı: Elm, – 1999. – 298 s.; Babayev, S.Y. Səyyahlar Naxçıvan haqqında // Azərbaycan tarixində Naxçıvan (tarixi oçerklər), – Bakı: – 22 iyun, – 1996. – s. 42-45.

[35] Bağırov, A.N. Naxçıvanın oykonimləri (1590-2007-ci illərin məlumatları əsasında) / A.N.Bağırov. – Bakı: Nurlan, – 2008. – 336 s.

[36]Baxşəliyev, V.B. Naxçıvanın qədim şəhərləri // – Naxçıvan: Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, 2010. № 2, – s. 57-60.

[37]Mahmudov, Y.M. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi / Y.M.Mahmudov, T.T.Mustafazadə, S.A.Məmmədov – Bakı: Çaşıoğlu, – 2009. – 576 s.; Mahmudov, Y.M. Naxçıvan: tarixi və abidələri / Y.M.Mahmudov, K.K.Şükürov – Bakı: Təhsil, – 2007. – 216 s.

[38]Piriyev, V.Z. Azərbaycanın tarixi coğrafiyası / V.Z.Piriyev. – Bakı: Araz, – 2002. – 152 s.; Priyev, V.Z. Naxçıvan tarixindən səhifələr / V.Z.Piriyev. – Bakı: Müəllim, – 2004. – 126 s.

[39]Məmmədov, R.A. Naxçıvan şəhərinin tarixi oçerki / R.A.Məmmədov. – Bakı: Elm, – 1977. – 160 s.

[40]İsayev, E.S. Böyük İpək yolu və Naxçıvan / E.S.İsayev. – Bakı: Elm və təhsil, – 2012. – 214 s.

[41] Kəlbizadə, E.H. Naxçıvanın tarixi coğrafiyası (XII-XVIII əsrin I yarısı) / E.H.Kəlbizadə. – Naxçıvan: Əcəmi, – 2016. – 200 s.

tarixçi və tədqiqatçıların əsərlərində də Naxçıvan şəhərinin tarixi inkişafı, toponimikası, tarixi coğrafiyası ilə bağlı bir sıra məsələlərə toxunulmuşdur.

Xarici ölkə tədqiqatçılarından M.İvanov,[45] R.İvanov,[46] Ə.Pakrəvan,[47] E.Semyonov kimi müəlliflər Naxçıvan şəhərinin XIX əsr tarixi barədə bir sıra məsələlərə toxunmuşlar.

2008-ci ildə nəşr edilmiş "Naxçıvan abidələri ensiklopediyası[48] "Naxçıvan ensiklopediyası"nın I və II cildlərindəki məqalələrdən də tədqiqat əsərinin yazılması zamanı istifadə olunmuşdur.[49]

Mövzunun tədqiqində Rusiya, Azərbaycan, Türkiyə arxivlərində saxlanılan müxtəlif arxiv sənədlərindən, Qafqaz Arxeoqrafiya Komissiyasının materiallarından (QAKA) və s. istifadə edilmişdir.[50] Arxiv sənəd və materiallarının təhlili tarixşünaslığımızın bu sahədə olan boşluqlarının qismən doldurulmasına xidmət etmişdir.

XIX əsr Naxçıvan şəhərinin təsərrüfat həyatı, iqtisadiyyatı, təbii resursları ilə bağlı Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin

---

[42]Əliyev, İ.N. Naxçıvan bölgəsi səfəvilər dövründə / İ.N.Əliyev. – Bakı: Elm və təhsil, – 2014. – 224 s.

[43]Kəngərli, İ.İ. Kəngərli elinin soy kitabı / İ.İ.Kəngərli. – Bakı: Nurlan, – 2005. – 296 s.

[44]Zeynalov, İ.Ə. Naxçıvanın maddi mədəniyyəti (XIX əsrin sonu-XX əsrin I yarısı) Tarixi-etnoqrafik tədqiqat / İ.Ə.Zeynalov. – Naxçıvan: Qızıldağ, – 2011. – 120 s.

[45]Иванов, М.С. Очерки истории Ирана /М.С.Иванов. – Москва: Госполитиздат, – 1952. – 468 с.

[46]Иванов, Р.Н. Нашествие / Р.Н.Иванов. – Москва: Герои Отечества, – 2009. – 448 с.; İvanov, R.N. Basqın / R.N.İvanov. – Naxçıvan: Əcəmi, – 2009. – 463 s.

[47] Pakrəvan, Ə.H. Abbas Mirzə və Azərbaycan / Ə.H.Pakrəvan. – Bakı: Qanun, – 2010. – 336 s.

[48]Naxçıvan abidələri ensiklopediyası / Bur. məs.V.Y.Talıbov. – İstanbul: Bakanlar media, – 2008. – 519 s.

[49]Naxçıvan Ensiklopediyası / bur. məs. V.Y.Talıbov. – İstanbul: Bakanlar media, – c. 1. – 2005. – 356 s.; Naxçıvan Ensiklopediyası / bur. məs. V.Y.Talıbov. – İstanbul: Bakanlar media, – c. 2. – 2005. – 376 s.

[50]Акты собранные Кавказской Археографической комиссией. / Под общ. ред. А. Д. Берже. – Тифлис: Тип. Главного Управления Наместника Кавказского, – т. 1-12. – 1866-1904 гг.

fondlarında zəngin materiallar saxlanılmaqdadır. Dissertasiya işinin yazılması zamanı sözügedən arxivin fondlarında olan bu qiymətli materiallar da tədqiqata cəlb edilmişdir.[51]

1884-1913-cü illərdə Tiflisdə nəşr olunan İrəvan quberniyasının icmalları da XIX əsr Naxçıvanın təsərrüfat həyatı, iqtisadiyyatı, təbii resursları ilə bağlı özündə zəngin məlumatları saxlayan çox qiymətli mənbələrdir.[52]

---

[51] Naxçıvan MR tarixinə dair sənədlər // Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMRDA), fond 314, siyahı 5a, iş 7, vərəq-102. Naxçıvan MR tarixinə dair sənədlər // (NMRDA), fond 314, siyahı 5, iş 7, vərəq-106. Naxçıvan qəzasında işləyən gözətçilər // (NMR DA) fond 26, siyahı 1, iş 1, vərəq 52. Xarici Ticarət Departamentinin gətirilən tütünə vurulan banderol haqqında, tütünə görə aksiz rüsumu haqqında təlimatları // (NMR DA) fond. 20, siyahı 1, iş 1/1, vərəq – 158. Naxçıvan Karanrin-Gömrük İdarəsinin İrandan rüsumsuz keçmə haqqında sirkulyar təlimatları. Tiflis Gömrüyünün mülki məbləğlərə, gətirilən və çıxarılan mallara dair Cədvəlləri // (NMR DA) fond 20, siyahı 1, iş 15/15, vərəq-185. Xarici Ticarət Departamentinin gömrük idarəsi qulluqçularının vəzifəyə təyin edilməsi, rütbələndirilməsi və xidmət müddətində fərqlənməyə görə mükafatlandırılması qaydaları haqqında, kartofun sərhəddən kənara çıxarılmasının qadağan olunması haqqında sirkulyarlar // (NMR DA), fond 20, siyahı 1, iş 3/3, vərəq- 189. Naxçıvan vilayətinin rus dövləti tərkibinə qatılmasının 150 illiyi // (NMR DA), fond 582, siyahı 1, iş 54, vərəq – 33. Zəngəzur və Naxçıvan qəzalarında çəyirtkənin peyda olması haqqında // (NMR DA), fond 24, siyahı 1, iş 783, vərəq – 56.

[52] Обзор Эриванской губернии за 1883 год: [Электронный ресурс] / elib.shpl.ru. - Эривань, - 1884. - URL: http://elib.shpl.ru/ru/nodes/49620-za-1883-god-1884.; Обзор Эриванской губернии за 1884 год: [Электронный ресурс] / elib.shpl.ru. - Эривань, - 1885. - URL: http://elib.shpl.ru/ru/nodes/49621-za-1884-god-1885.; Обзор Эриванской губернии за 1891 год: [Электронный ресурс] / elib.shpl.ru. - Эривань, - 1892. - URL: http://elib.shpl.ru/ru/nodes/49623-za-1891-god-1892.; Обзор Эриванской губернии за 1892 год: [Электронный ресурс] / elib.shpl.ru. - Эривань, - 1893. - URL: http://elib.shpl.ru/ru/nodes/49624-za-1892-god-1893.; Обзор Эриванской губернии за 1894 год: [Электронный ресурс] / elib.shpl.ru. - Эривань, - 1895. - URL: http://elib.shpl.ru/ru/nodes/49626-za-1894-god-1895.; Обзор Эриванской губернии за 1895 год: [Электронный ресурс] / elib.shpl.ru. - Эривань, - 1896. - URL: http://elib.shpl.ru/ru/nodes/49627-za-1895-god-1896.; Обзор Эриванской губернии за 1898 год: [Электронный ресурс] / elib.shpl.ru. - Эривань, - 1899. - URL: http://elib.shpl.ru/ru/nodes/49630-za-1898-god-1899.; Обзор Эриванской губернии за 1899 год: [Электронный ресурс] /

Bundan əlavə, AMEA Əlyazmalar İnstitutunun Əlyazmalar Fondunda,[53] Rusiya Dövlət Sosial-Siyasi Tarix Arxivində,[54] Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivində[55] saxlanılan sənədlərdən də mövzunun əsas və yardımçı təfərrüatlarının öyrənilməsi, dəqiqləşdirilməsi və faktoloji materiallarla sübuta yetirilməsi üçün istifadə edilmişdir.

XIX əsrdə yaşamış Azərbaycan tarixçilərindən A.Bakıxanovun "Gülüstani-İrəm" əsəri Naxçıvanın xanlıqlar dövrü tarixinin öyrənilməsi üçün bəzi məlumatları bizə çatdırır.[56] XIX əsrdə müxtəlif müəlliflər tərəfindən qələmə alınmış Qarabağ xanlığının tarixinə həsr olunmuş əsərlərdə – Qarabağnamələrdə Naxçıvan xanlığının qonşu xanlıqlarla münasibətləri, Qacar şahlarının, Qarabağ xanlarının Naxçıvan şəhərini ələ keçirmək üçün yürütdükləri siyasət və yürüşləri haqqında maraqlı, bir çox hallarda isə polemika doğura biləcək məlumatlar verilmişdir.[57]

Vasili Nikiforoviç Qriqoryev tərəfindən 1833-cü ildə tərtib edilmiş "Naxçıvan əyalətinin statistik təsviri" kitabı Naxçıvan şəhərinin XIX

---

elib.shpl.ru. - Эривань, - 1900. - URL: http://elib.shpl.ru/ru/nodes/49631-za-1899-god-1900

[53]Sidqi Səfərovun tərcümeyi-halı // AMEA Əlyazmalar İnstitutu, Fond № A-25, siyahı № Q-7, vərəq – 180.

[54]Документы о деятельности Орджоникидзе в качестве члена Закавказского крайкома ВКП(б) // Российский государственный архив социально-политической истории (РГАСПИ), фонд №85, оп. № 25, д. № 522.

[55]Nahçıvan hanı Kelp Ali Hanın Karabağ köylerini yağmalaması // Başbakanlık Osmanlı Arşivi (BOA), Hatt-ı Hümâyûn Tasnifi, № 765, yaprak - 1.

[56]Bakıxanov, A.A. Gülüstani-İrəm / A.A.Bakıxanov. – Bakı: Möminin, – 2001. – 225 s.; Бакиханов, А.А. Гюлистани-и Ирам / А.А.Бакиханов. – Баку: Элм, – 1991. – 304 с.

[57]Qarabağnamələr: [3 kitab] / tərt. ed. N.F.Axundov. – Bakı: Şərq-Qərb, – k. 2. – 2006. – s. 288.; Qarabağnamələr: [3 kitab] / tərt. ed. A.F.Fərzəliyev. – Bakı: Şərq-Qərb, – k. 1. – 2006. – 216 s.; Qarabağnamələr: [3 kitab] / tərt. ed. N.F.Axundov. – Bakı: Şərq-Qərb, – k. 3. – 2006. – 248 s.

əsr tarixinin tədqiqi üçün ən faydalı və əhəmiyyətli mənbələrdən biridir.[58]

İ.Şopenin "Rusiya imperiyasına birləşdirilməsi dövründə erməni vilayətinin tarixi salnaməsi" əsəridir. İ.Şopenin müəllifi olduğu əsər xüsusi tapşırıqla yazılmış bəzi faktları təhrif edən əsər olsa da belə, bu qaynaqda verilən qiymətli məlumatların dəyərini azaltmır.[59]

XIX əsrin ortalarında yaşamış digər rus tədqiqatçısı N.Engelqardt da Naxçıvan diyarına xüsusi məqalə həsr etmiş və məqalədə Naxçıvan şəhərindən də bəhs etmişdir.[60]

XIX əsr Naxçıvan şəhərinin tarixinə həsr olunmuş ən qiymətli əsərlərdən biri olan K.N.Nikitinin 1882-ci ildə yazmış olduğu "Naxçıvan şəhəri və Naxçıvan qəzası" məqaləsində Naxçıvan xanlığı dövründə, eləcə də çar Rusiyasının idarəçiliyi dövründə Naxçıvan şəhərinin tarixinin müxtəlif məqamları işıqlandırılmışdır.[61]

S.P.Zelinskinin "Üç mahal" adlı məqaləsi də XIX əsrdə yazılmış Naxçıvan şəhərinin tarixinə dair bəzi məlumatların əks olunduğu dəyərli qaynaqlardan biridir.[62]

Avropalı müəlliflərdən Q.Druvil,[63] E.Veydenbaum[64] və R.Porterin səyahətnamələrində,[65] R.Uatsonun,[66] P.Saykesin[67] və b. əsərlərində

---

[58] Григорьев, В.Н. Статистическое описание Нахичеванской провинции / В.Н.Григорьев. – Санкт-Петербург: тип. Деп. внеш. торг. – 1833. – 264 с.

[59] Шопен, И.И. Исторический памятник состояния Армянской области в эпоху ея присоединения к Российской империи / И.И.Шопен. – Санкть-Петербург: Типография Императорской Академии Наук, – 1852. – 1231 с.

[60] Энгельгардт, Н.А. Нахичеванъ / Н.А.Энгельгардт. – Тифлис: Кавказский календарь на 1852 г, –1851. – 547-553 с.

[61] Никитин, К.А. Город Нахичевань и Нахичеванский уездь // – Тифлис: Сборник материалов для описания местностей и племен Кавказа (СМОМПК). Вып.2, Тифлис: – 1882. – с. 109-142.

[62] Зелинский, С.П. Три магала: Нахичеванский, Ордубадский и Даралагезский: Географически-статистическое и сельскохозяйственное описание // Сборник сведений о Кавказе. т. VII. Тифлис, – 1880. – с. 209-258

[63] Друвиль, Г.И. Путешествие в Персию в 1812 и 1813 годах / Перевод с французского. 2 ч., ч. 1, Москва. – 1826. – 201 с.

[64] Вейденбаумъ, Е.Г. Путеводитель по Кавказу / Е.Г.Вейденбаумъ. – Тифлисъ: Типография Канцел, – 1888. – 434 с.

Naxçıvan şəhərinin işğala qədərki və işğaldan sonrakı dövr hərbi və siyasi tarixindən bəhs edilmişdir.

K.Smirnovun, V.Sısoyevin Naxçıvan diyarının tarixi və etnoqrafiyasına həsr olunmuş əsərlərində də Naxçıvan şəhərinin XIX əsr tarixi ilə bağlı müxtəlif məqamlara toxunulmuş, şəhərin çar Rusiyası tərəfindən işğalı və köçürmə prosesləri ilə bağlı bir sıra məqamlardan bəhs edilmişdir.[68]

**Tədqiqatın obyekti və predmeti.** Azərbaycanın qədim bölgələrindən olan Naxçıvan şəhərinin tarixi tədqiqatın əsas obyektidir. Mövzu xronoloji baxımdan XIX əsri tamamilə əhatə edir. Adı çəkilən dövrdə Naxçıvan şəhərinin idarəçiliyi, ictimai-siyasi vəziyyəti, mədəni həyatı geniş şəkildə tədqiqata cəlb edildiyindən dissertasiyanın obyekti də əhatəli olmuşdur. Tədqiqatın predmetini isə Naxçıvan şəhərinin XIX əsr tarixi, müəyyən edilmiş xronoloji çərçivədə şəhərdəki hərbi-siyasi, ictimai-iqtisadi və mədəni inkişaf proseslərinin mahiyyəti təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi mövcud yazılı mənbə və ədəbiyyatlar, arxiv sənədləri əsasında Naxçıvan şəhərinin XIX əsr siyasi və hərb tarixinin, tarixi coğrafiyasının, demoqrafiyasının, iqtisadiyyatının və mədəniyyətinin tədqiqindən, şəhərin tarixi təkamülünü və inkişaf səviyyəsini izləməkdən ibarətdir.

---

[65]Ker Porter, R. Travels Georgia, Persia, Armenia, Ancient Babylonia &c. during the years 1817, 1818, 1819, and 1820 / R.Ker Porter. – London: Ternoster-row, – 1821. – p. 882

[66]Watson, R.G. A history of Persia. From the beginning of the nineteenth century to the year 1858. The Kajar Dynasty / R.G.Watson. – London: Smith, Elder and Co, – 1866. – p. 565

[67]Sykes, P.M. A history of Persia. London: Macmillan and Co., Limıted, 1915, in two volumes Vol II, – p. 565

[68] Сысоев, В.В. Нахичевань на Араксе и древности Нах. АССР (отчет о поездке летом 1926 г.) // – Баку: Известия «Азкомстариса», выпуск 4, тетрадь 2. – 1929 – 215 с.; Смирнов, К.Н. Материалы по истории и этнографии Нахичеванского края: [Электронный ресурс] / www.nakhchivan. – yanvar 24, 1999. URL: www.nakhchivan.preslib.az/ebooks/45.pdf.; Смирнов, К.Н. Материалы по истории и этнографии Нахичеванского края / К.Н.Смирнов. – Баку: Озан, – 1999. – 156 с.

Bu məqsədlər tədqiqatın obyektini və predmetini də müəyyənləşdirir. Tədqiqatın obyektini Azərbaycanın mühüm əhəmiyyətə malik şəhərlərindən biri kimi XIX əsr Naxçıvan şəhərinin tarixi təşkil edir. Tədqiqatın predmetini isə Naxçıvan şəhərinin XIX əsr tarixi, müyyən edilmiş xronoloji çərçivədə şəhərdəki hərbi-siyasi, ictimai-iqtisadi və mədəni inkişaf proseslərinin mahiyyəti təşkil edir.

Dissertasiyada problemin aşağıdakı istiqamətlərinin tədqiqi vəzifə olaraq müəyyən edilmişdir:

- XIX əsrin başlanğıcında Qacarlar dövlətindən yarımasılı vəziyyətdə olan Naxçıvan xanlığının paytaxtı Naxçıvan şəhərinin siyasi, iqtisadi, sosial və mədəni həyatının əsas məqamlarını araşdırmaq;
- XIX əsrin əvvəllərində Qacarlar dövləti, Osmanlı imperiyası, Çar Rusiyası, Fransa və İngiltərə kimi Avropa dövlətlərinin Qafqazla bağlı siyasətlərinin Naxçıvan şəhərinin tarixi taleyinə təsiri məsələlərini öyrənmək, Naxçıvan şəhərinin bu dövlətlər üçün əhəmiyyətini göstərən məqamları aşkara çıxarmaq;
- I Rusiya-Qacarlar müharibəsinin gedişində Naxçıvan şəhəri ilə bağlı məqamları tədqiq etmək, müharibənin Naxçıvanın şəhər həyatına mənfi təsirlərini şəhərin tənəzzülünün əsas səbəblərindən biri kimi elmi dəlillərlə isbat etmək;
- Gülüstan müqaviləsinin imzalanmasından II Rusiya-Qacarlar müharibəsinin başlanmasına qədərki dövrdə Naxçıvan şəhərinin mövcud durumunu şərh etmək;
- II Rusiya-Qacarlar müharibəsinin Naxçıvan şəhərinin tarixi taleyinə təsiri məsələlərini faktlar əsasında izah etmək;
- Türkmənçay müqaviləsində və onun əlavələrində Naxçıvanla bağlı əksini tapmış məqamların Naxçıvan şəhərinin gələcək inkişafına və taleyinə təsiri məsələlərini öyrənmək;
- XIX əsrdə Naxçıvan şəhərinin tarixi-coğrafiyasını, yerləşdiyi arealın fiziki coğrafi xüsusiyyətlərini, şəhərin məhəllələr üzrə bölgüsünü müəyyənləşdirmək;
- XIX əsrdə Naxçıvan şəhərinin etnodemoqrafik və sosiodemoqrafik həyatındakı dəyişiklikləri araşdırmaq;
- XIX əsrdə Naxçıvan şəhərinin iqtisadi inkişaf xüsusiyyətlərini, feodalizmdən kapitalizmə keçid mərhələsində meydana çıxan mənfi

və müsbət təzahürləri elmi obyektivlik prinsipləri nöqteyi-nəzərindən təhlil etmək;

- Çar Rusiyasının müstəmləkə siyasətinin Naxçıvan şəhərinin ictimai-iqtisadi, sosial-mədəni həyatına təsirlərini müəyyən etmək;
- Naxçıvan şəhərinin bəhs olunan xronoloji çərçivədə sosial-mədəni həyatının əsas istiqamətlərini kompleks şəkildə tədqiq etmək.

**Tədqiqat metodları.** Dövrlə bağlı tarixi materiallar sistemli şəkildə öyrənilmiş, nəzəri ədəbiyyatların təhlili aparılmışdır. Dissertasiyanın yazılması zamanı milli tarixşünaslığımızda əldə olunan ən son təcrübələr də nəzərə alınmış, dünya və vətən tarixşünaslığında əldə edilmiş mühüm elmi nailiyyətlərə və müddəalara istinad olunmuşdur. Ümummilli lider Heydər Əliyevin tariximizin və dövlətçilik ənənələrimizin öyrənilməsi sahəsində fərman və göstərişləri istiqamətverici metodoloji əsas kimi götürülmüşdür.

Dissertasiya işinin yazılması zamanı nəzəri yanaşma, qarşılıqlı müqayisə, təhlil və elmi tarixi ümumiləşdirmə kimi tədqiqat metodları tətbiq edilmişdir. Tədqiqata cəlb olunan qaynaqlara tənqidi yanaşılmış, faktların qarşılıqlı olaraq təhlili və müqayisəsi aparılmış, alınan elmi nəticələr ümumiləşdirilmişdir. Naxçıvan şəhərinin XIX əsr tarixini öyrənərkən tətbiq etdiyimiz əsas metodlardan biri proqressiv metod olmuşdur. Bu metodu tətbiq edərək biz şəhərin məhəllələri üzrə müxtəlif ərazilərdə müşahidələr aparmaqla, tarixi mənbələrdə verilən məlumatlarla real durumu qarşılaşdırmaqla ərazilərin hazırda necə olduğunu müəyyənləşdirdik. Reduktiv metodun tətbiqi nəticəsində isə biz müxtəlif tayfa qruplarının keçmiş məskunlaşma areallarının, o areallarын bugünkü şəhər əhalisinin tərkibinə və sonrakı dövr inkişafına təsiri məsələlərini müşahidə etdik.

Bundan əlavə, apardığımız tədqiqatlar zamanı tərəfimizdən tipoloji, müqayisəli-qarşılaşdırma metodları da tətbiq olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqatın məqsəd və vəzifələrinə uyğun olaraq müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

1. İctimai-siyasi inkişafının xüsusiyyətlərinə görə Naxçıvan şəhərinin XIX əsr tarixi iki mərhələyə – işğalaqədərki və işğaldan sonrakı mərhələlərə ayrılır;

2. İndiyə qədər tarixşünaslıqda əsasən hökm sürmüş çar Rusiyası tərəfindən işğal edilməsinə qədərki dövrdə Naxçıvan şəhərinin tipik və baxımsız Şərq şəhəri olması fikrini tam obyektiv həqiqət kimi qəbul etmək olmaz. Çünki xanlıq dövründə Naxçıvan xanları tərəfindən şəhərdə quruculuq-tikinti tədbirləri həyata keçirilmiş, hətta Qacarlar dövlətinin xanlıq üzərində təsirinin gücləndiyi dövrdə şəhərin və şəhərətrafı məntəqələrin möhkəmləndirilməsi üçün Avropalı memarların təcrübəsindən istifadə etmişdir;

3. Rusiya-Qacarlar dövləti müharibələri dövründə Naxçıvan Qafqazda iki dövlət arasında diplomatik danışıqların aparıldığı əsas şəhərlərdən biri olmuşdur;

3. Rusiya işğalına qədərki dövrdə Naxçıvan şəhəri həm də elm, təhsil və mədəniyyət mərkəzi olmuş, o zaman şəhərdə mövcud olan Şərq maarifçiliyinin prinsiplərinə uyğun təhsil verən məktəb və mədrəsələrdə görkəmli ziyalılar, alimlər və mütəfəkkirlər yetişmişlər.

**Tədqiqatın elmi yeniliyi** bir çox amillərlə müəyyən olunur. Dissertasiyanın yazılması zamanı Naxçıvan şəhərinin XIX əsr tarixinin kompleks mənzərəsinin təsviri üçün mövcud tarixşünaslıq əsərlərindən geniş şəkildə istifadə olunmuşdur. Dissertasiya işinin əsas yenilikləri kimi aşağıdakılar qeyd oluna bilər:

- Tarixşünaslığımızda ilk dəfə olaraq Naxçıvan şəhərinin XIX əsr tarixinin müxtəlif məsələləri kompleks və ətraflı şəkildə araşdırılmışdır;
- I və II Rusiya-Qacarlar müharibələri zamanı Naxçıvan şəhərinin strateji əhəmiyyəti müəyyənləşdirilmiş, eləcə də bu şəhərin müharibənin gedişi zamanı əsas diplomatik dialoq mərkəzlərindən biri olduğu faktlar əsasında sübuta yetirilmişdir;
- Bizə qədərki dövrdə ümumilikdə Naxçıvan diyarının tarixi coğrafiyası ilə əlaqədar tədqiqatlar aparılmışdısa, dissertasiya işində ilk dəfə olaraq şəhərin tarixi coğrafiyasının tədqiqinə cəhd göstərilmiş və götürülmüş xronoloji çərçivədə Naxçıvan şəhərinin tarixi coğrafiyası tədqiq edilmişdir;
- İndiyə qədər şəhərin quruluşu və məhəllələrin sayı ilə bağlı müxtəlif mənbələrdə verilən məlumatlara istinad səbəbindən tarixşünaslığımızda bir qarışıqlıq mövcud idisə, ilk dəfə olaraq tərəfimizdən

məhəllələrin sayının dəyişməsi ilə bağlı xronika müəyyənləşdirilmiş, məhəllələrin yerləşmə arealları aydın və müfəssəl şəkildə təsvir edilmişdir;[69]

- XIX əsr Naxçıvan şəhərinin ərazisi hesablanmışdır;
- Dövrün mənbələri və arxiv materialları əsasında bölgənin deyil, konkret olaraq Naxçıvan şəhərinin əhalisinin say tərkibi, etnik tərkibi və sosial strukturu tədqiq edilmiş və alınan elmi nəticələr təqdim edilmişdir;
- Kapitalizmə keçid mərhələsində Naxçıvan şəhərində iqtisadiyyatın, xüsusən sənayenin inkişaf xüsusiyyətləri müəyyənləşdirilmiş, bəzi hallarda arxiv mənbələri əsasənda, bir sıra nadir təbii sərvətlərin Naxçıvan diyarı ərazisindəki mövcud potensialı ilə bağlı məsələlər müəyyənləşdirilmişdir;
- İndiyə qədər elm və təhsilin inkişafından bəhs edən tədqiqatçılar əsasən Rusiya işğalından sonrakı dövrdə dünyəvi təhsilin və dünyəvi elmlərin inkişafından bəhs etmiş, mollaxana-mədrəsə təhsil sistemi, batini və irfani elmlərlə məşğul olan alimlərin fəaliyyətləri barədə məlumat verməmişlər. Bunun da əsas səbəblərindən biri hələ çar Rusiyası dövründən müəyyən edilən müstəmləkəçi təfəkkür olmuşdur. İlk dəfə bu mövzulardan bəhs edən rus məmur-tədqiqatçıları və onların sovet dövründəki davamçıları Qafqaza mədəni inkişafın, təhsilin və elmin məhz ruslar tərəfindən gətirildiyini isbatlamağa çalışmış və özlərindən əvvəlki dövrün müsbət cəhətlərini gözardı etməyə çalışmışlar. Dissertasiyada bu istiqamətə ilk dəfə xüsusi diqqət yetirilmişdir.[70]

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqat işinin əsas müddəa və nəticələrindən ali məktəblərin müvafiq fakültələrində

---

[69] Abdullayev, A.K. XIX əsr Naxçıvan şəhərinin tarixi coğrafiyasının bəzi məsələlərinə dair // – Naxçıvan: “Naxçıvan” Universitetinin Elmi Əsərləri, – 2018. – №3 (10), – s. 211; Abdullayev, A.K. XIX əsr Naxçıvan şəhərinin tarixi coğrafiyası // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri, İctimai elmlər seriyası, – 2018. № 6 (95), – s. 33.

[70] Abdullayev, A.K. Naxçıvan şəhərinin elmi həyatı, ictimai fikrin və xalq maarifinin vəziyyəti (XIX əsr) // – Naxçıvan: “Naxçıvan” Universitetinin Elmi Əsərləri, – 2018. № 1 (8), – s. 222.

ixtisas kurslarının aparılmasında, Naxçıvanın XIX əsr tarixinə aid ümumiləşdirilmiş əsərlərin yazılmasında, dərslik və dərs vəsaitlərinin hazırlanmasında, tarixi mövzuda elmi seminar və konfransların keçirilməsində, Naxçıvan bölgəsi əhalisinin etnik tarixi haqqında gerçəkliyin dünya ictimaiyyətinə çatdırılmasında və s. geniş istifadə oluna bilər. Eyni zamanda ölkəmizdə qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə əlaqədar olaraq tarixən mövcud olmuş, lakin bu gün unudulmuş bir sıra təsərrüfat ənənələrinin dirçəlidilməsi diqqət mərkəzində olan məsələlərdəndir. XIX əsrdə Naxçıvanda belə təsərrüfat sahələrinin coğrafiyası əsas götürülməklə, o sahələrin yenidən təşkili və inkişafı, fikrimizcə, çox faydalı ola bilər.

**Aprobasiyası və tətbiqi**. Dissertasiyanın mövzusu Naxçıvan Dövlət Universiteti Elmi Şurasının 24 yanvar 2014-cü il tarixli iclasında və Respublika Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının Tarix Problemləri üzrə Elmi Şurasının 07 aprel 2017-ci il tarixli iclasında (protokol № 2/10) müzakirə olunaraq təsdiq edilmişdir.

İşin əsas müddəaları haqqında Azərbaycan, Türkiyə və Rusiyada keçirilmiş beynəlxalq simpozium və konfranslarda məruzələr edilmişdir. Bu dövr ərzində tərəfimizdən 3 kitab, 3 proqram, 37-dən artıq elmi məqalə nəşr etdirilmişdir. Dissertasiyanın əsas məzmunu müxtəlif vaxtlarda respublikamızda və xaricdə nəşr olunmuş 1 kitab və 17 məqalədə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya 2014-2018-ci illərdə Naxçıvan Dövlət Universitetinin "Azərbaycan tarixi" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın quruluşu və həcmi.** Dissertasiya işi giriş, 3 fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir. Giriş hissə 28.176, I Fəsil 72.721, II Fəsil 121.462, III Fəsil 60.096, nəticə hissəsi isə 10.125 işarədən ibarət olmaqla, cəmi 292.580 işarə sayı təşkil edir.

## İŞİN ƏSAS MƏZMUNU

**“Giriş”**də mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tədbiqi, strukturu və həcmi öz əksini tapmışdır.

**“Naxçıvan şəhəri Rusiya imperiyası ilə Qacarlar arasındakı müharibələr dövründə”** adlanan birinci fəsil üç yarımfəsildən ibarətdir. Bu fəsildə Naxçıvan şəhərinin XIX əsrin başlanğıcında Naxçıvan xanlığının paytaxtı kimi daşıdığı mühüm hərbi, siyasi və strateji əhəmiyyətdən, şəhər həyatının müxtəlif aspektlərindən bəhs olunur. Rusiya və Qacarlar dövləti arasında baş vermiş iki müharibənin Naxçıvan şəhərinin tarixi taleyinə təsiri məsələləri milli tarixşünaslığımız nöqteyi nəzərindən araşdırılmışdır.

**“Naxçıvan şəhəri Naxçıvan xanlığının paytaxtı kimi XIX əsrin əvvəllərində”** adlı I yarımfəsildə göstərilir ki, XVIII əsrin sonu – XIX əsrin başlağıcında Naxçıvan şəhəri Qacarlar dövlətindən asılı olan yarımmüstəqil Naxçıvan xanlığının paytaxtı, Cənubi Qafqaza sahib-lənmək uğrunda özünəməxsus planları olan Romanovlar Rusiyası üçün isə ələ keçirilməsi vacib olan strateji nöqtələrdən biri idi. Bundan başqa bölgə, eləcə də şəhərlə bağlı bütün müsəlmanların xəlifəlik institutunu əlində saxlayan Osmanlı dövlətinin də özünəməxsus iddiaları var idi. Lakin bu mərhələdə Avropa dövlətləri və Rusiyanın ağır zərbələri və daxildə baş qaldıran problemlərin həllinə başı qarışmış Osmanlı imperiyası bu iddiaları əvvəlki kimi açıq ortaya qoya bilmirdi. Lakin Osmanlı dövləti ilə Azərbaycanın müxtəlif xanları arasında aparılan diplomatik yazışmalar da sübut edir ki, bu iddialar da yox deyildi.[71] Digər tərəfdən, unutmamaq

---

[71]Nahçıvan hanı Kelp Ali Hanın Karabağ köylerini yağmalaması // Başbakanlık Osmanlı Arşivi (BOA), Hatt-ı Hümâyûn Tasnifi, № 765, yaprak – 1.; Osmanlı devleti ile Azerbaycan türk hanlıkları arasındaki münâsebetlere dâir arsiv belgeleri. Karabağ-Şuşa, Nahçıvan, Bakü, Gence, Şirvan, Şeki, Revan, Kuba, Hoy (1575-1918). c. 2. Ankara: Osmanlı Arsivi Daire Baskanlığı Yayın No: 9, –1993. – 483 s.

lazımdır ki, hələ XVIII əsrin 20-30-cu illərində Naxçıvan qısa bir müddət də olsa Osmanlı idarəçiliyinə daxil edilmiş və Osmanlı dövləti sonradan bu əraziləri müəyyən şərtlər çərçivəsində tərk etmişdi.[72]

Qacarlar dövlətinin Naxçıvan bölgəsi və onun əsas şəhəri olan Naxçıvan şəhərinə yanaşması daha çox tarixi keçmişlə bağlı idi. Məhz bu səbəbdən də Qacarların möhkəmləndiyi dönəmdə - 1797-ci ildə Naxçıvan xanlığı asılı xanlığa çevrilmiş və Naxçıvan xanlarının birbaşa Qacar şahlarının fərmanı ilə təyin olunmasına başlanmışdır. Lakin bəzi müəlliflərin bu fikri ilə də razılaşmaq olmaz ki, 1747-1797-ci illərdə müstəqil bir xanlıq olan Naxçıvan xanlığı həmin vaxtdan etibarən, 1828-ci ildə Rusiya tərəfindən işğal olunana qədər, faktiki olaraq Qacarlar dövlətinin ucqar əyalətlərindən birinə çevrilmişdir.[73]

XVIII əsrin sonu XIX əsrin əvvəllərində baş verən hərbi-siyasi proseslərin təhlili belə qənaətə gəlməyə imkan verir ki, bu dövrdə Naxçıvan xanlığı təkcə Rusiya və Qacarlar dövləti ilə deyil, həm də Kartli-Kaxetiya çarlığı, Avar üsmiliyi, Qarabağ, İrəvan, Xoy, Maku xanlıqları ilə aktiv hərbi, siyasi əlaqələrə malik olmuşdur. Xanlığın mərkəzi olan Naxçıvan şəhəri də strateji əhəmiyyətinə uyğun olaraq həm hərbi yürüşlərin, həm də aparılan diplomatik siyasi mübarizə və danışıqların şahidi olmuşdur.

---

[72] Левиатов, В.Н. Очерки из истории Азербайджана в XVIII веке / В.Н.Левиатов. – Баку: Изд. АН Азерб. ССР, – 1948. – с. 66.; Kəlbizadə, E.H. Naxçıvanın tarixi coğrafiyası (XII-XVIII əsrin I yarısı) / E.H.Kəlbizadə. –Naxçıvan: Əcəmi, – 2016. – s. 131-142.; İrəvan əyalətinin icmal dəftəri / Araş. tərc. qeyd və əlavə. Z.M.Bünyadov, H.B.Məmmədov – Bakı: Elm, – 1996. – s. 9.; Naxçıvan sancağının müfəssəl dəftəri (9 məhərrəm 114) / Tərc. ed. Z.M.Bünyadov, H.B.Qaramanlı – Bakı: Elm, – 2001. – s. 11.

[73] Əliyev, F.M. Naxçıvan xanlığı / F.M.Əliyev, M.Əliyev. – Bakı: Şərq-Qərb, – 2007. – s. 15.; Budaqova, S.İ. Naxçıvan diyarının tarixi coğrafiyası (XVIII əsrin ikinci yarısı – XIX əsrin birinci qərinəsi) / S.İ.Budaqova. – Bakı: Elm, – 1995. – s. 25.

XVIII əsrin sonu XIX əsrin əvvəllərində feodal pərakəndəliyi və ara müharibələr, natural təsərrüfatın hökm sürməsi təbii ki, Naxçıvan şəhərinin sosial iqtisadi durumuna ciddi və mənfi təsir göstərmişdi.

XIX əsrin başlanğıcında Naxçıvan şəhərində 5000 nəfərdən çox əhali yaşayırdı. Əhalinin əksəriyyəti Kəngərlilər idi. Bu barədə məlumat verən rus ordusunun zabiti mayor Matuşeviç öz raportunda həmçinin qeyd edirdi ki, qış vaxtı şəhərə daha 1000 nəfərə qədər yarımköçəri ailəsi toplaşırdı.[74] Bu yarımfəsildə həmçinin şəhərin iqtisadi, mədəni həyatı, memarlıq hadisələri ilə bağlı da geniş təhlillər aparılır və məlumatlar verilmişdir.

I fəslin II yarımfəsli **"Naxçıvan şəhəri Rusiya və Qacarlar arasındakı I müharibə dövründə (1804-1813)"** adlanır. Bu hissədə 1804-cü il iyun ayının 10-da başlayan I Rusiya-Qacar müharibəsi dövründə Naxçıvan şəhərinin Cənubi Qafqazda ən nüfuzlu xanlıqlardan biri olan Naxçıvan xanlığının paytaxtı kimi təkcə hərbi proseslərin deyil, həm də tarixi-siyasi proseslərin mərkəzində yeri müəyyənləşdirilmişdir.

Qeyd olunmuşdur ki, indiyə qədər aparılan tədqiqatlarda obyektiv və subyektiv səbəblərdən müharibənin gedişatına daha çox çar Rusiyası mövqeyindən yanaşıldığı üçün birinci müharibədə Naxçıvan xanlığının və onun mərkəzi olan Naxçıvan şəhərinin elə də aktiv rol almadığı qənaətinə gəlinmişdir. Halbuki, müharibənin və hərbi proseslərin gedişlərinə Qacarlar dövlətinin nöqteyi-nəzərindən baxdığımız zaman aydın olur ki, Naxçıvan şəhəri bu dövlətin qoşunlarının əsas qərargahlarından birinin yerləşdiyi areala daxil olmuşdur. Şimali Azərbaycanda rus qoşunları ilə mübarizə aparan Qacar dövlətinin qoşunlarının Araz çayından şimaldakı ərazidə əsas istinad nöqtələrindən biri məhz Naxçıvan şəhəri olmuşdur.

**"Naxçıvan şəhəri Rusiya ilə Qacarlar arasındakı II müharibə dövründə (1826-1828)"** adlanan III yarımfəsil Naxçıvan şəhərinin tarixinin ən kəşməkəşli dövründən bəhs edir. Naxçıvan xanlığı uğrunda gedən qanlı döyüşlər, bu döyüşlərin Naxçıvan şəhərinə

---

[74]Budaqova, S.İ. Naxçıvan diyarının tarixi coğrafiyası (XVIII əsrin ikinci yarısı – XIX əsrin birinci qərinəsi) / S.İ.Budaqova. – Bakı: Elm, – 1995. – s. 37.

təsiri, şəhərin qəti olaraq Rusiya nəzarətinə keçməsi məsələləri bu fəsildə geniş şəkildə araşdırılmışdır. Qeyd olunmuşdur ki, 1828-ci ildə Rusiya ilə Qacarlar arasında bağlanmış Türkmənçay müqaviləsi Naxçıvanın Rusiya tərəfindən işğalını rəsmiləşdirdi.[75] Müqavilənin III maddəsində qeyd olunurdu: *"İran şahı həzrətləri öz adından və öz vərəsələri və varisləri adından Arazın o tayı və bu tayı üzrə İrəvan xanlığını və Naxçıvan xanlığını Rusiya imperiyasının tam mülkiyyətinə güzəştə gedir. Şah həzrətləri bu güzəşt nəticəsində, hazırkı müqavilənin imzalanmasından sayılmaqla altı aydan gec olmayaraq, yuxarıda adları çəkilən hər iki xanlığın idarə edilməsinə aid olan bütün arxivləri və ictimai sənədləri Rusiya rəisliyinə vəd edir".*[76]

Bu isə nəinki Azərbaycanın ümumilikdə Qafqazın və Yaxın Şərqin tarixi və mədəni mərkəzlərindən biri olan, Qafqaz və ətraf bölgələrin nəzarətdə saxlanılması üçün mühüm strateji nöqtə sayılan Naxçıvan şəhərinin də işğalının rəsmiləşməsi demək idi. Naxçıvan xanlığının Arazdan şimaldakı ərazilərinin, o cümlədən Naxçıvan şəhərinin Rusiya imperiyasının nəzarətinə keçməsi ilə Naxçıvan şəhərinin tarixində də yeni dövr başlamışdır.

**"Rusiyanın işğalından sonrakı dövrdə Naxçıvan şəhərinin ictimai-siyasi və iqtisadi həyatı"** adlanan ikinci fəsil də üç yarımfəsildən ibarətdir. Bu fəsildə XIX əsr Naxçıvan şəhərinin Naxçıvan şəhərinin tarixi-coğrafiyası və şəhər quruluşu, şəhərin plan dəyişmələri, məhəllələrin yerləşməsi məsələləri araşdırılmış, şəhər əhalisinin etnik və sosial strukturu, şəhərdə sosial münasibətlər öyrənilmiş, işğaldan sonrakı dövrdə Naxçıvan şəhərinin idarəçiliyi və iqtisadi həyatı təhlil edilmişdir.

Fəslin birinci yarımfəsli **"Naxçıvan şəhərinin tarixi-coğrafiyası və şəhər quruluşu"** adlanır. Burada şəhərin XIX əsr boyunca daxil

---

[75]Naxçıvan tarixi / Baş. məs. V.Y.Talıbov. – Naxçıvan: Əcəmi, – c. 2. – 2014. – s. 81.

[76]Şükürov, K.K. Türkmənçay-1828: Tarixi xronika / K.K.Şükürov. – Bakı: Çaşıoğlu, – 2006. – s. 135.; Azərbaycan tarixi (XIX-XXI əsrin əvvəli): ali məktəblər üçün mühazirələr kursu / [2 cilddə]. s. 73.

olduğu inzibati vahidlər müəyyənləşdirilmiş, şəhərin daşıdığı status qeyd olunmuşdur. Müəyyən edilmişdir ki, XIX əsrin 30-cu illərində Naxçıvan şəhərinin əsas hissəsi 6 verstlik ərazidə yerləşirdi.[77] Bu isə şəhərin ərazisinin təqribən 10 $km^2$ əhatə etdiyini söyləməmizə imkan verir. V.Qriqoryev ətrafdakı əkin sahələri ilə birlikdə götürdükdə şəhərin ərazisini 17 verst[78] və yaxud 28,39 $km^2$ göstərmişdir. Kameral siyahıların şəhər haqqında məlumatları əks etdirən hissəsində isə bu rəqəm 20 verst olaraq qeyd edilmişdir.[79]

Naxçıvan şəhəri qala şəhəri olmuş və şəhərin əsas hissəsi qala divarları ilə əhatələnmişdi. Rus ordusunun mayoru Matuşeviçin qeydlərindən aydın olur ki, 1803-cü ildə Naxçıvan qalasının 6 qülləsi mövcud olmuş, şəhərin qala hissəsinin mühafizəsi üçün 4 topdan istifadə olunurmuş.[80] Naxçıvan şəhərinin 1827-ci ildə hazırlanmış planında da şəhərin qala hissəsi sxematik olaraq təsvir olunmuşdur.[81] Plandan aydın olur ki, qala iki hissədən Kiçik Qala (Narınqala) və böyük qaladan ibarət olmuşdur. Baş verən müharibələr nəticəsində böyük qala Narınqala hissəsinə nisbətən daha çox dağıntılara məruz qalmışdı. Planın tədqiqi nəticəsində belə bir qənaətə gəlirik ki, şəhərin mərkəzi Möminə Xatın türbəsinin yerləşdiyi ərazi – Qala məhəlləsi olmuşdur. Şəhərin bu hissəsində düzgün formada olmayan şəhər meydanının ətrafında bir sıra komplekslər cəmləşmişdi. Ə.Salamzadə və K.Məmmədzadə yazırlar ki, Naxçıvan şəhərinin mərkəzi meydan ansanblına Xan sarayı ilə birlikdə İçqala da daxil

---

[77] Григорьев, В.Н. Статистическое описание Нахичеванской провинции / В.Н.Григорьев. – Санкт-Петербург: тип. Деп. внеш. торг. – 1833. – с. 69.
[78] Yenə orada
[79] Камеральное описание г. Нахичевана за 1831 г. // Azərbaycan Dövlət Tarix Arxivi (AzDTA), Fond № 24, siyahı № 1, iş № 353. v. 3.
[80] Присоединение восточной Армении к России. Сбор документов, том 1, (1801-1813) / Сост.: Ц.П.Агаян, С.А.Тер-Авакимова, Д.А.Мурадян, В.А. Дилоян. Ереван: Издательство Академии Наук Армянской ССР, – 1972. – с. 371.
[81] Salamzadə, Ə.R. Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri / Ə.R.Salamzadə, K.Məmmədzadə – Bakı: Elm, – 1985. – s. 69.; Səfərli, H.Y. Naxçıvanın türk-islam mədəniyyəti abidələri / H.Y.Səfərli. – Naxçıvan:Əcəmi, – 2017. – s. 144.

olmuşdur.[82] Bu isə Naxçıvan şəhərini o dövrdə Cənubi Qafqazda və Cənubi Azərbaycanda mövcud olan bir çox digər şəhərlərdən fərqləndirən əsas xüsusiyyətlərdən biri idi. Belə ki, dövrün digər şəhərlərində əsasən iki mərkəzlilik müşahidə olunur. Belə şəhərlərdə içqala və şəhər meydanı fərqli ərazilərdə yerləşirdi. İçqala siyasi mərkəz funksiyasını, şəhər meydanı isə dini və iqtisadi mərkəz funksiyasını yerinə yetirirdi. Naxçıvan şəhərində isə İçqalanın və şəhər meydanının eyni ərazidə yerləşməsi şəhərin vahidmərkəzli olmasını sübut edən başlıca amildir.

Naxçıvan şəhərinin Rusiya işğalına qədərki dövründə bu şəhərdə 4 məhəllə mövcud idi. İşğaldan sonrakı dövrdə isə müharibənin dayanması, əhali yerdəyişmələri, köçürmələr nəticəsində şəhərin məhəllələrinin sayı da artmışdır. Arxiv sənədlərində də XIX əsrin əvvəllərində Naxçıvan şəhərində 13 məhəllənin adı çəkilir. Ən məşhur məhəllələr bunlar idi: Sarbanlar, Oruc-məhəllə, Köhnəqala, Xoşulu, Əlixanlı, Çaparxanlı, Zilarxı, Bilici, Şahab, Xoy, Qala, Təzəkənd (və yaxud Uzundivar) və s.[83]

**“XIX əsr Naxçıvan şəhəri əhalisinin etnik və sosial strukturu, şəhərdə sosial münasibətlər”** adlı ikinci yarımfəsildə adından da göründüyü kimi şəhər əhalisi ilə bağlı məsələlər təhlil edilmiş, şəhər əhalisinin tərkibində köçürmə ermənilərin sayının artması ilə bağlı məsələlər öyrənilmişdir. Qeyd olunur ki, işğaldan sonrakı dövrdə hərbi əməliyyatların dayandırılması, stabilliyin davamlı xarakter alması savaşlar zamanı bölgəni tərk etmiş yerli əhalinin yenidən geri qayıtmasına səbəb olmuşdur. Bundan başqa rusların və ermənilərin bölgəyə köçürülməsi də əhalinin sayının çoxalmasına səbəb olmuşdur. Müəyyən edilmişdir ki, XIX əsrin 20-ci illərinin sonunda Naxçıvan şəhəri əhalisinin sayının 4610 nəfər, XIX əsrin 20-ci illərinin sonu 30-cu illərinin əvvəllərində Naxçıvan şəhərində

---

[82]Salamzadə, Ə.R. Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri / Ə.R.Salamzadə, K.Məmmədzadə. – Bakı: Elm, – 1985. – s. 70.

[83]Камеральное описание г. Нахичевана за 1831 г. // Azərbaycan Dövlət Tarix Arxivi (AzDTA), Fond № 24, siyahı № 1, iş № 353. v. 4.

təqribən 4600-5000 nəfər, XIX əsrin 30-cu illərində 5470 nəfər,[84] XIX əsrin 40-cı illərinin sonlarında 5157 nəfər,[85] 1850-ci ildə 4410 nəfər olmuşdur.[86] XIX əsrin 60-cı illərində Naxçıvan şəhərində 5966 nəfər,[87] XIX əsrin 70-ci illərində 6877 nəfər,[88] XIX əsrin 80-ci illərində 6939 nəfər[89] yaşayırdı. Şəhər əhalisinin sayı 1897-ci il əhali siyahıya almasının nəticələrinə görə 8.790 nəfərə çatmışdır.[90] Əhalinin etnik tərkibi ilə yanaşı, dini tərkibi, sosial strukturu da bu yarımfəsildə təhlil edilmişdir.

**"Rus işğalından sonra Naxçıvan şəhərinin idarəçiliyi və iqtisadi həyatı"** adlı üçüncü yarımfəsildə Rusiya işğalından sonra

---

[84]Шопен, И.И. Исторический памятник состояния Армянской области в эпоху ея присоединения к Российской империи / И.И.Шопен. – Санкть-Петербург:Типография Императорской Академии Наук, – 1852. – с. 635-638.; Камеральное описание г. Нахичевана за 1831 г.// Azərbaycan Dövlət Tarix Arxivi (AzDTA), Fond № 24, siyahı № 1, iş № 353. v. 8.

[85]Сумбатзаде,А.С. Промышленность Азербайджана в XIX в / А.С.Сумбатзаде. – Баку : Изд-во АН Азерб. ССР, – 1964. – с. 48.; Şahverdiyev, Z.Ə. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində / Z.Ə.Şahverdiyev. – Bakı: Elm, – 2008. – s. 86.

[86]Камеральное описание г. Нахичевана за 1843 г. // Azərbaycan Dövlət Tarix Arxivi (AzDTA), Fond № 25, Siyahı № 2, iş № 7.

[87] Сумбатзаде, А.С. Промышленность Азербайджана в XIX в / А.С.Сумбатзаде. – Баку : Изд-во АН Азерб. ССР, –1964. – с. 48.

[88]Зелинский, С.П. Три магала: Нахичеванский, Ордубадский и Даралагезский: Географически-статистическое и сельскохозяйственное описание // Сборник сведений о Кавказе. т. VII. Тифлис, – 1880. – с. 248.

[89]Свод статистических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886 г. / издан по распоряжению Главноначальствующаго гражданскою частию на Кавказе Закавказским статистическим комитетом. Тифлис: Тип. И.Мартиросианца, – 1893 – 52 с.

Şahverdiyev, Z.Ə. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində / Z.Ə.Şahverdiyev. – Bakı: Elm, – 2008. – s. 123-124.; Naxçıvan tarixi / Baş. məs. V.Y.Talıbov. – Naxçıvan:Əcəmi, – c. 2. – 2014. – s. 116

[90] Первая всеобщая перепись населения Российской Империи 1897 г. 71. Эриванская губерния / Под ред. Н. А. Тройницкого. – Санкт-Петербург: издание Центрального статистического комитета Министерства внутренних дел, – 1905. – с. 8.

yaradılmış Naxçıvan Şəhər İdarəçiliyinin fəaliyyəti və quruluşuna ətraflı diqqət yetirilmişdir.

XIX əsr Naxçıvan şəhərinin tarixində həm də kapitalist münasibətlərinin yaranması dövrü kimi qiymətləndirilə bilər. Bu dövrdə kənd təsərrüfatı və sənayedə kapitalist istehsal üsulunun ilkin rüşeymləri meydana gəlmiş, əsrin sonlarına doğru isə xeyli dərəcədə inkişaf etmişdi. Çar Rusiyası dövründə iqtisadiyyatın müxtəlif sahələrinin inkişafına diqqət yetirilirdi. Burada əsas məqsəd heç də yerli əhalinin yaşayış səviyyəsinin yüksəldilməsindən ibarət olmamışdır. Əksinə, müstəmləkəçilik məqsədlərinin həyata keçirilməsi, təbii sərvətlərin daha çox istismarı çarizmin regiondakı iqtisadi siyasətinin əsasını təşkil edirdi. XIX əsr Naxçıvan şəhərinin kənd təsərrüfatında taxılçılıq, meyvəçilik, üzümçülük, pambıqçılıq və bağçılıq mühüm yer tuturdu.[91] Daha çox kənd yaşayış məskənləri üçün xarakterik olsa da XIX əsrdə Naxçıvan şəhərində yaşayan əhalinin bir qismi oturaq maldarlıqla da məşğul olmuşdur. XIX əsrin 30-cu illərinə aid arxiv sənədlərində bu dövrdə Naxçıvan şəhərində 259 öküz, 263 kəl, 258 inək, 164 buzov, 766 qoyun, 866 keçi, 444 at, 856 eşşək, 87 qatır saxlanılması barədə məlumatlara rast gəlinir.[92]

XIX əsrdə Naxçıvan şəhərinin təsərrüfat həyatında sənətkarlıq və ticarət mühüm yer tuturdu. Bu məsələ ilə bağlı tarixşünaslığımızda əksini tapmış müxtəlif mübahisəli fikirlər təhlil edilmiş, məsələyə elmi obyektivlik nöqteyi nəzərindən yanaşılmışdır. Bu yarımfəsildə sənayenin və şəhərin ticarət həyatının öyrənilməsi də əsas diqqət yetirilən məqamlar olmuşdur. Təhlillər nəticəsində belə bir qənaətə gəlirik ki, müstəmləkəçilik siyasətindən irəli gəlsə belə XIX əsrin II yarısından etibarən Naxçıvan şəhərinin iqtisadi həyatında müəyyən dirçəliş baş vermiş, sənayedə yeni texnikanın tətbiqinə başlanılmışdır. Yolların çəkilməsi və yeni rabitə vasitələrinin tətbiqi

---

[91]Григорьев, В.Н. Статистическое описание Нахичеванской провинции / В.Н. Григорьев. – Санкт-Петербург: Санкт-Петербург: тип. Деп. внеш. торг. – 1833. – с. 27.

[92]Камеральное описание г. Нахичевана за 1831 г. // Azərbaycan Dövlət Tarix Arxivi (AzDTA), Fond № 24, siyahı № 1, iş № 353. v. 14.

həm ticarət əlaqələrinin, həm də ictimai-mədəni əlaqələrin inkişafına müsbət təsir göstərmişdir.

Dissertasiyanın **“Naxçıvan şəhərinin mədəni həyatı”** adlanan üçüncü fəsli 4 yarımfəsildən ibarətdir. Bu fəsildə XIX əsrdə Naxçıvan şəhərinin elmi həyatı, ictimai fikr və xalq maarifinin vəziyyəti məsələləri araşdırılmış, şəhərdə ədəbi mühit və ədəbiyyatın inkişafından söz açılmışdır. Naxçıvan şəhərində incəsənətin və teatrın inkişafı baxımından bu dövr xüsusi fərqlənir. Dissertasiya işində də bu məqam xüsusi ilə qabardılmışdır. İşğaldan əvvəlki dövrlə müqayisədə işğaldan sonrakı dövrdə Naxçıvan şəhərində memarlıq məsələləri də tədqiqatın ən maraqlı hissələrindən biridir.

**“Naxçıvan şəhərinin elmi həyatı, ictimai fikrin və xalq maarifinin vəziyyəti”** adlı birinci yarımfəsildə məsələyə sovet tarixşünaslığının ənənələrindən fərqli bir yanaşma ortaya qoyulmuşdur.

Sovet dövründə yazılmış tarixi ədəbiyyatlarda, o cümlədən müasir dövrdə yazılmış bəzi əsərlərdə guya rus işğalına qədərki dövrdə Azərbaycanda təhsilin səviyyəsinin çox aşağı olması ilə bağlı fikirlər irəli sürülür, məktəb və mədrəsələr geriliyin və cəhalətin qalıqları kimi təqdim edilməsinə cəhdlər göstərilirdi. Halbuki əsrlər boyunca məhz bu məktəb və mədrəsələrdə yetişmiş görkəmli alimlər böyük kəşflərə imza atmış, bu kəşf və ixtiralardan təkcə Şərq dünyası deyil Qərb ölkələri də faydalanmışdır.

Rus müstəmləkəçiliyinin yeni məktəblər yaratmaqda, rusdilli ziyalıları formalaşdırmaqda əsas məqsədləri onlara yad olan Şərq dillərində danışan xalqın ziyalılarını “özününküləşdirmək”dən ibarət idi. Məlum idi ki, milli və mənəvi hisslərdən qoparılmış şəxsiyyət hər nə qədər bilgi və savad sahibi olsa da onun milli hisslərdən məhrum olması gerçək ziyalıya çevrilməsinə imkan verə bilməz.

Naxçıvandan XIX əsr boyunca şəhər və qəza məktəblərinin, yeni tipli məktəbin yaranması məsələri mərhələli şəkildə tədqiq edilmişdir. Elmi mühitin öyrənilməsi ilə bağlı məqamlarda da batini elmlərin araşdırılması, həm də dünyəvi elmlərlə məşğul olan elm adamlarının fəaliyyətinin təhlili diqqətdə saxlanılmışdır. Eləcə də bu dövrdə Naxçıvanın öyrənilməsi istiqamətində rus və avropa müəlliflərinin fəaliyyəti ayrıca olaraq öyrənilmişdir. Bu yarımfəsildə XIX

əsrdə Naxçıvan şəhərində mətbu orqanların yayım durumu ilə bağlı tədqiqatlar aparılmışdır. Arxiv materialları sübut edir ki, XIX əsrin 60-cı illərində Naxçıvan şəhərində bir sıra rusdilli qəzet və jurnallar yayılırdı. 1865-ci ildə Naxçıvan şəhərində ümumilikdə 13 qəzet və 34 jurnala abunəlik mövcud olmuşdur.[93]

III fəslin ikinci yarımfəsli **"XIX əsr Naxçıvan şəhərində ədəbi mühit və ədəbiyyatın inkişafı"** adlanır. XIX əsrdə Naxçıvan şəhəri Azərbaycanda ədəbi mühitin əsas mərkəzlərindən biri hesab olunurdu. Azərbaycan ədəbiyyatında maarifçi realizmə keçidin əsas hərəkətverici qüvvəsi məhz bu şəhərdə formalaşırdı. Bu dövr Azərbaycan ədəbiyyatında yeniləşmə prosesləri orta əsrlər klassik ədəbi ənənələrinin, təzkirəçiliyin, nəzirəçiliyin arxa plana keçirilməsi və maarifçi-realist ədəbiyyatın meydanının genişləndirilməsi uğrunda mübarizənin daha da qüvvətlənməsinə yol açmışdır.[94] Lakin ümumilikdə Azərbaycan ədəbi mühitində olduğu kimi Naxçıvan ədəbi mühitində də klassik ədəbi ənənə ikinci planda olsa da, xeyli dərəcədə zəifləsə də, yaşamışdır. Yəni XIX əsrin müxtəlif mərhələlərində Naxçıvanda yaşayıb-yaratmış sənətkarların bir qismi klassik poeziya ənənələrini davam etdirmişlər.[95]

Heyran xanım Dümbüli, Qönçəbəyim, Məhəmməd Tağı Sidqi, Cəlil Məmmədquluzadə, Eynəli bəy Sultanov, Mirzə Cəlil Şürbi, Hüseyn Cavid, Qurbanəli Şərifzadə kimi ədiblərin ədəbi yaradıcılığının müxtəlif məqamlarına dissertasiyada toxunulmuşdur.

**"Naxçıvan şəhərində incəsənətin və teatrın inkişafı"** adlı üçüncü yarımfəsildə göstərilir ki, bəhs olunan dövr Naxçıvan şəhərinin mədəni həyatında da bir sıra dəyişiklikləri ilə yaddaqalan olmuşdur. Qərb və Rusiyanın mədəni təsirləri nəticəsində Şərqdə o dövr üçün xeyli dərəcədə modern hesab edilə biləcək incəsənət sahələrinin, o

---

[93]Семенов, И.Я. Русские в истории Армении / И.Я.Семенов. – Ереван: Лусабац, – 2009. – с. 62.
[94]Naxçıvan tarixi / Baş. məs. V.Y.Talıbov. – Naxçıvan: Əcəmi, – c. 2. – 2014. – s. 187.
[95]Yenə orada

cümlədən teatrın yaranması və inkişafı Naxçıvan şəhərinin həyatında fövqəladə hadisə olmuşdur.

XIX əsrin II yarısından etibarən Naxçıvanda təsviri və dekorativ tətbiqi sənətdə yeni meyllər meydana çıxmağa başlamışdır. Musiqi sənəti əsasən yerli ifaçıların yaradıcılığı ilə qorunub saxlanılırdı. XIX əsr Naxçıvan mədəniyyətinin ən inqilabi hadisələrindən biri baş vermişdir. Naxçıvan şəhərində ilk teatr tamaşasının göstərilməsi Azərbaycanda ilk teatrın yaranmasından düz 10 il sonraya təsadüf edir. 10 (23) mart 1873-cü ildə Bakıda M.F.Axundovun "Lənkəran xanının vəziri" pyesinin tamaşası ilə Azərbaycan teatrının yaranması haqqında xəbərlər Naxçıvana çatan kimi yerli həvəskarlar teatr işinin inkişafı və yayılması istiqamətində fəaliyyətə başladılar[96]. Qeyd etmək lazımdır ki, Naxçıvanda teatrın yaranmasında və teatr tamaşalarının nümayişində Eynəli bəy Sultanovun rəhbərlik etdiyi "Ziyalılar cəmiyyəti" (1882) və "Naxçıvan Müsəlman İncəsənəti və Dram Cəmiyyəti"nin (1883) xüsusi rolu olmuşdur. Məhz Eynəli bəy Sultanov Tiflisdəki tanışlarının köməyi ilə M.F.Axundovun "Müsyo Jordan və Dərviş Məstəlişah" komediyasının surətini əldə edərək Naxçıvana gətirmiş[97] və 1883-cü ilin mart ayında tamaşa nümayiş etdirilmişdir. Teatrın yaranmasını o dövrün mühüm mədəni hadisəsi kimi dəstəkləyənlərlə yanaşı, mürtəce qüvvələr tərəfindən buna qarşı çıxanlar da olmuş, digər tərəfdən tamaşanın rus dilində deyil, Azərbaycan türkcəsində səhnəyə qoyulması müstəmləkəçi çar məmurlarını xeyli narahat etmişdi. Hətta şəhər rəisi guya xalqın şikayətini nəzərə alaraq teatr tamaşalarına qadağa qoymuşdu. Çar məmurlarının əsl hiddətinin səbəbini bilən E.Sultanov məhz bu məqsədlə rusca yazdığı "Tatar qızı" əsərinin səhnələşdirilməsinə başlamış və əsəri rus dilində tamaşaya qoymuşdur. "Naxçıvan teatrının salnaməsi"nin müəllifləri yazırlar ki, həmin vaxt "Tatarka" ilə bir vaxtda N.Solovyovun "İşin başlanğı-

---

[96]Naxçıvan tarixi / Baş. məs. V.Y.Talıbov. – Naxçıvan: Əcəmi, – c. 2. – 2014. – s. 195.

[97]Qasımov, Ə.M. Milli teatrımızın yaranma günü, yaxud Naxçıvan teatrının neçə yaşı var?! // – Bakı: Qobustan. Sənət toplusu, – 2007. № 2, – s. 64.

cında” və fransız T.Barrer və L.Tivunun “Evdə qalmaqal” əsərləri də tamaşaya qoyulmuşdur.

Sonuncu yarımfəsil **“Naxçıvan şəhərində memarlıq”** adlanır. Bütün sahələrdə olduğu kimi memarlıq sahəsində də XIX əsr keçid dövrü sayıla bilər. Belə ki, bu dövrə qədər Naxçıvan şəhəri ərazisində mövcud olan və inşa edilən binaların əksəriyyəti sırf Şərq memarlığını özündə əks etdirirdi. XII əsrdə Əcəmi Əbubəkr oğlu Naxçıvaninin yaratdığı memarlıq məktəbinin ənənələri davam etdirilir, bir çox hallarda bu ənənələr İsfahan və Anadolu memarlığının təsirindən də bəhrələnirdi. Lakin XIX əsrdə rus işğalı ilə Naxçıvan şəhərində inşa edilən binaların memarlığında da dəyişikliklər baş verdi. Baş vermiş müharibələr şəhərin memarlığına və şəhərsalma quruluşuna da təsirsiz ötüşməmişdi. V.Qriqoryev şəhərin memarlıq abidələrindən bəhs edərkən, fransız səyyahı Şardenin Naxçıvan şəhəri ərazisində 5 karvansaradan, böyük bazardan, hamamlardan və 2000 evdən söz açdığını göstərmişdir. Bu abidələrin XIX əsrin 20-30-cu illərindəki durumundan bəhs edən rus müəllifi göstərir ki, adıçəkilən möhtəşəm memarlıq incilərinin çoxunun yalnız qalıqları qalmışdır. Böyük bazar, ümumiyyətlə, mövcud deyildir, “xəndəklərlə türk məscidinin arasındakı ərazidə görünən daşlara görə” müəllif bazarın böyüklüyünü qeyd etmişdir.[98]

İşin əlavələr hissəsində isə XIX əsrə aid müxtəlif xəritələr, fotoşəkilllər, illüstrativ materiallar və arxiv sənədlərinin surətləri təqdim edilmişdir.

**Tədqiqatdan aşağıdakı nəticələrə gəlinir:**

1. İlkin şəhər mədəniyyətinin tarixi 5000 il öncədən başlayan Naxçıvan şəhəri orta əsrlər boyunca bir sıra tərəqqi və tənəzzül dövrləri yaşamışdır. Lakin XVII əsrdən etibarən baş verən qanlı müharibələr, eləcə də XIX əsrdə baş vermiş birinci və ikinci Rusiya-Qacarlar müharibəsi əsrin I yarısında şəhər və şəhər ətrafı yaşayış

---

[98]Григорьев, В.Н. Статистическое описание Нахичеванской провинции / В.Н. Григорьев. – Санкт-Петербург: тип. Деп. внеш. торг. – 1833. – с. 67.

məntəqələrinə xeyli dərəcədə ziyan vurmuş, məhsuldar qüvvələri dağıdılmışdır [5; 8].

2. Bəhs olunan dövrdə Naxçıvan şəhəri orta əsrlər dövründə olduğu kimi Avropa şəhərləri ilə artıq geniş və davamlı iqtisadi-ticarət əlaqələrinə malik olmamışdır. Şəhərin ticarət sistemi əsasən xanlıqdaxili, xanlıqlararası və həmsərhəd qonşu ölkələrin böyük şəhərləri ilə məhdudlaşmışdı [5].

3. İndiyə qədər aparılan əksər tədqiqatlarda obyektiv və subyektiv səbəblərdən müharibənin gedişatına daha çox çar Rusiyası mövqeyindən yanaşıldığı üçün bu müharibədə Naxçıvan xanlığının və onun mərkəzi olan Naxçıvan şəhərinin rolu elə də aydın şəkildə təsvir olunmamışdır. Halbuki müharibənin və hərbi proseslərin gedişlərinə Qacarlar dövlətinin nöqteyi-nəzərindən baxdığımız zaman aydın olmuşdur ki, Naxçıvan şəhəri Qacarlar dövlətinin qoşunlarının əsas istinad nöqtələrindən biri olmuşdur [8].

4. XIX əsrin 50-ci illərinə qədər Naxçıvan şəhərinin xarakterində ciddi bir dəyişiklik baş verməmiş və o xeyli dərəcədə orta əsr şəhəri xüsusiyyətlərini qoruyub saxlamışdı [12]. XIX əsrin II yarısından etibarən isə müharibələrin dayanması, nisbi sabitliyin təmin olunması şəhərin nisbətən də olsa, inkişafına imkan vermişdir.

5. XIX əsr Naxçıvan şəhərinin quruluşu, xüsusilə məhəllələri, yaşayış evləri, ictimai binaları əhalinin iqtisadi-sosial vəziyyətinə uyğun şəkildə yerləşirdi. Şəhərdə sənətkarlar, xırda tacirlər, müxtəlif peşə sahibləri və yoxsulları əhalinin əksəriyyətini təşkil edirdilər [11].

6. Naxçıvan xanlığının paytaxtı olan Naxçıvan şəhəri ardıcıl olaraq işğalçı qoşunlarının hücumlarına məruz qaldığı üçün döyüş meydanına çevrilmişdi. Həmin müharibələrin bütün ağırlığı geniş xalq kütlələrinin üzərinə düşürdü. Rusiya işğalından sonrakı dövrdə də vergi və mükəlləfiyyətlərin miqdarı xeyli yüksək olmuşdur.

7. XIX əsrin əvvəllərində Naxçıvanda əsasən Şərq tipli məktəb və mədrəsələrə əsaslanan təhsil sistemi olmuşdusa, əsrin ortalarından etibarən yaradılan məktəblər Şərq ənənələri ilə yanaşı, Qərbi Avropa və Rusiyanın maarif nailiyyətlərindən də müəyyən müsbət çalarlar əxz etmişdir [6].

8. XIX əsrin sonlarında Naxçıvan şəhərinin ictimai-iqtisadi həyatında baş verən dəyişikliklər onun mədəniyyətinin inkişafına və mədəni sahədə bir sıra dəyişikliklərin baş verməsi ilə də nəticələnmişdir.

9. Belə bir nəticəyə gəlmək mümkündür ki, Azərbaycanın ən qədim şəhərlərindən biri sayılan Naxçıvan şəhəri XIX əsrdə də strateji əhəmiyyətə malik mühüm iqtisadi, siyasi və mədəni mərkəzlərdən biri olmuşdur.

**Dissertasiyanın məzmununu əhatə edən aşağıdakı monoqrafiya və məqalələr nəşr olunmuşdur:**

1. Tarix yaradan şəxsiyyətlər salnaməsi / – Bakı: Elm və təhsil, – 2013. – 244 s.
2. Naxçıvanda sənətkarlığın tarixi coğrafiyası (XVIII əsrin ikinci yarısı – XIX əsrin birinci yarısı) // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, İctimai elmlər seriyası, – 2015. №2 (67), – s. 72-74.
3. Naxçıvanda sənətkarlıq və sənayenin inkişafı (XIX əsr) // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri, İctimai elmlər seriyası, – 2016. № 6(75), – s. 32-38.
4. Azərbaycanın Rusiya ilə İran arasında bölüşdürülməsi, xarici dövlətlərin planları və Osmanlı dövlətinin mövqeyi // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri, İctimai elmlər seriyası, – 2017. № 2(83), – s. 50-53.
5. Naxçıvan xanlığının paytaxtı Naxçıvan şəhəri XIX əsrin başlanğıcında // – Naxçıvan: "Naxçıvan" Universitetinin Elmi Əsərləri, – 2017. № 4 (7), – s. 191-201.
6. Naxçıvan şəhərinin elmi həyatı, ictimai fikrin və xalq maarifinin vəziyyəti (XIX əsr) // – Naxçıvan: "Naxçıvan" Universitetinin Elmi Əsərləri, – 2018. № 1 (8), – s. 222-235.
7. Naxçıvan Rusiya ilə Qacarlar İranı arasındakı müharibələr dövründə (1826-1828) // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri, İctimai elmlər seriyası, – 2018. № 2 (91), – s. 30-33.
8. Rusiya və İranın Qafqaz siyasətində Naxçıvan şəhəri (XIX əsrin əvvəlləri) // AXC-nin 100 illiyinə həsr olunmuş "Qafqazda döv-

lətlərarası münasibətlər 100 il əvvəl və müasir dövr” beynəlxalq elmi konfrans, AMEA Qafqazşünaslıq İnstitutu, – Bakı: – 23-24 may, – 2018, – s. 202-208.

9. Описание города Нахчиван (XIX век) // “Advances in Science and Technology” XV Международная научно-практическая конференция, – Москва: – 31 июля, – 2018, – с. 175-178.

10. Кварталы города Нахчывана в XIX в. // Гражданские конфликты и гражданские войны в истории, – Москва: – 4-6 апреля, – 2018, – с. 5-6.

11. XIX əsr Naxçıvan şəhərinin tarixi coğrafiyasının bəzi məsələlərinə dair // – Naxçıvan: “Naxçıvan” Universitetinin Elmi Əsərləri, – 2018. – № 3 (10), – s. 211-217.

12. XIX əsr Naxçıvan şəhərinin tarixi coğrafiyası // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri, İctimai elmlər seriyası, – 2018. № 6 (95), – s. 33-37.

13. Nakhchivan city between Russia and Gajar İranian in 1826-1828 // Актуални проблеми, – Москва: – 2018, – №12, – s. 72-74.

14. Naxçıvan şəhəri Rusiya və qacarların Cənubi Qafqaz siyasətində (1826-1828-ci illər) // Qafqazşünasların II Beynəlxalq Forumu, AMEA Qafqazşünaslıq İnstitutu, – Bakı: – 23-24 may, – 2019, – s. 136-138.

15. Naxçıvanda sənətkarlığın tarixi coğrafiyasına dair bəzi məsələlər. (XVIII əsrin ikinci yarısı) // – Naxçıvan: Naxçıvan Müəllimlər İnstitutunun Elmi əsərləri, – 2019. № 3 (57), – s. 108-110.

16. Description of the city Nakhchivan on quarters (XIX century): [Electronic resource] / Revista Dilemas Contemporáneos: Educación, Política y Valores. – 2 January, – 2020. URL: https://dilemas-contemporaneos-educacio.webnode.es/_files/ 200006 7028297182973/20.01.120%20Descripción%20de%20la%20ciudad %20Nakhchivan%20en.....pdf

17. XIX əsr Naxçıvan şəhər tarixinin milli konteksdə araşdırılması ilə bağlı yeni konseptual qərarlar haqqında // – Naxçıvan: Naxçıvan Müəllimlər İnstitutunun Elmi əsərləri, – 2020. № 2 (60), – s. 118-123.

18. Architecture in the city of Nakhchivan (XIX century) // Scientific horizon in the context of social crises. Proceedings of the 7th international scientific and Practical Conference, – Tokyo: – 6-8 february, – 2021, – p. 633-638.

Dissertasiyanın müdafiəsi 11 iyun 2021-ci il tarixdə saat $15^{00}$-da AMEA Naxçıvan Bölməsi nəzdində fəaliyyət göstərən ED 1.13 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi, əsas bina, I mərtəbə, akt zalı

Dissertasiya ilə AMEA Naxçıvan Bölməsinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Naxçıvan Bölməsinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat ______ __________ 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 04.05.2021
Kağızın formatı: 60/84, 16/1
Həcm: 292.580
Tiraj: 100